

Milli azadlıqdan şirin nemət yoxdur!

# 1 olaq Sentyabrda 1-ci Partiyaya səs verək!




YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
14 avqust 2024-cü il, çərşənbə
№ 145 (6731)
Qiymətі 60 qəpik


## İlham Əliyev: Sabitliyin təminatçısı Azərbaycan xalqıdır



## Uğur formulunun açarı...



Bax səh. 2

## Seçkilər YAP-ın zəngin və şərəfli tarixinə növbəti qələbə səhifəsi kimi yazılacaq

Bax səh. 6

## İntellektual potensial, texnoloji tərəqqi strategiyası...

Prezident İlham Əliyev "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" sərəncamda dəyişiklik edib. Dövlət başçısının imzaladığı yeni sərəncama əsasən, həmin proqramın müddəti 2028-ci ilə qədər uzadılıb, euyni zamanda, xaricdə təhsil alacaq gənclərin sayı 400-dən 500-ə qaldırılıb. Belə ki, Dövlət Proqramının icrası müddətində hər il 500 nəfərdən çox olmamaqla, ümumilikdə 2000 nəfərədək Azərbaycan Respublikası vətəndaşının xaricdə nüfuzlu ali təhsil müəssisələrində təhsil alması təmin ediləcək. Digər dəyişiklik proqram çərçivəsində bakalavr və magistratura pilləsi ilə yanaşı, doktorantura üzrə də xaricdə təhsil almaq imkanının yaradılmasıdır.

"Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı"nın əsas məqsədi gənclərə xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsilalma imkanları yaratmaqla, onların Azərbaycanın gələcək inkişafını təmin edəcək və qlobal çağırışlara cavab verəcək müasir texnologiyaları çevik mənimsəyən, praktiki bilik və bacarıqlara yiyələnən, müasir və gələcək əmək bazarının tələblərinə cavab verən rəqabətqabiliyyətli, yüksəkixtisaslı peşəkar kadrlar kimi hazırlanmasını təmin etməkdir. Eyni zamanda, yeni dövrün tələblərinə cavab verən elmtutumlu kadr instutunun formalaşdırılması, inkişaf hədəflərinə və  prioritet istiqamətlərə yaradıcı gənclərin təhsilinin doktorantura səviyyəsində hazırlığının təmin edilməsi də zəruri strateji məqsədlərdir...

Bax səh. 2



## Mərkəzi Bank təmkinli investisiya siyasəti yürüdür

Bax səh. 7

## Dünyanı qorxuya salan virus...

Bax səh. 8

## Bir qayanın sirri

Bax səh. 8

## Ölkəmizin qlobal inteqrasiyaya verdiyi töhfə

Azərbaycanın daim dəyişən beynəlxalq və regional proseslərə uyğun olaraq yürütdüyü xarici siyasəti var. Ölkə başçısının da mütəmadi olaraq beynəlxalq təşkilatların rəhbərləri ilə keçirdiyi görüşlər, əldə etdiyi razılaşmalar, dünyanın güc mərkəzləri ilə apardığı müzakirələr sayəsində qlobal siyasi arenada etibarlı tərəfdaş kimi etimad qazanmışıq.

Prezidentin uğurlu siyasəti nəticəsində Azərbaycan dünyanın müxtəlif ölkələri və təşkilatları ilə həm sosial, həm hərbi, həm siyasi, həm də iqtisadi sahələrdə əməkdaşlıq qurub. Ölkəmiz beynəlxalq münasibətlər çərçivəsində həll olunan məsələlərdə fəal iştirak edir. Azərbaycan həmçinin qlobal və regional miqyasda xüsusi nüfuza sahib olan beynəlxalq təşkilatlarla əməkdaşlıqda maraqlıdır.

**Azərbaycan bütün dünyada etibarlı tərəfdaşdır**

Mövzu barədə fikirlərini "Yeni Azərbaycan"la bölüşən politoloq Turan Rzayev bildirib ki, Azərbaycan müasir geosiyası reallıqda Cənubi Qafqazda lider ölkədir. Onun sözlərinə görə, bunun da əsas meyarı uğurlu, xarici siyasət, iqtisadi inteqrasiya və siyasi sabitlikdir: "Xarici siyasətin düzgün müəyyənləşdirilməsi və icrası dünyanın mürəkkəb, həssas bölgəsində-coğrafi baxımdan Qərb və Şərqin kəsişməsində, sivilizasiyaların qovuşma məkanında, strateji yanaşmalarda isə geosiyasi və geoiqtisadi maraqların kəsişmə nöqtəsində yerləşən Azərbaycan üçün müstəsna əhəmiyyətə malikdir. Belə ki, ölkəmiz milli maraqlarını, regionda aparıcı dövlət statusunu qorumaqla yanaşı...

Bax səh. 8

## Yaxın Şərq yeni müharibə astanasında...



ABŞ hərbi gəmiləri hərəkətə keçib

Bax səh. 7



# Uğur formulunun açarı...

## Siyasətin əsas məsələlərindən biri ictimai-siyasi sabitlik və milli təhlükəsizliyin təmin olunmasıdır

### İlham Əliyev: Sabitliyin təminatçısı Azərbaycan xalqıdır

Qısa müstəqillik tarixində Azərbaycan böyük uğurlara imza atıb. Bu gün respublikamız dünyaya hər cəhətdən nümunəvi inkişaf modeli təqdim edir. Ölkəmizin milli maraqlar, qlobal çağırışlar, daxili potensial, cəmiyyətin sosial sifarişləri nəzərə alınmaqla müəyyənləşdirilən öz gündəliyi var və bu gündəliyin ardıcıllıqla həyata keçirilməsi yüksək səviyyədə təmin edilir. İndiyədək qarşıya qoyulan bütün məqsədlərə çatılıb və perspektiv inkişafla bağlı hər hansı bir tərəddüd yoxdur. Xüsusilə də ölkənin öz gücü ilə ərazi bütövlüyümüzün və suverenliyimizin tam təmin edilməsi tarixi nailiyyətdir. Yeni strateji mərhələ üçün isə beş mühüm prioritet müəyyənləşdirilib və həmin məqsədlərə çatılması istiqamətində də fəal çalışmalar həyata keçirilir. Əldə olunan ilkin nəticələr onu deməyə əsas verir ki, ölkəmiz bu mərhələni də uğurla başa vurmağa nail olacaq.

Bəs Azərbaycanın nailiyyətlər qazanmasını şərtləndirən əsas amillər hansılardır? Uğur formulunun açarı nədən ibarətdir? Sualların cavabı olaraq əsas məqamı qeyd edək: Bu gün möhkəm daxili sabitlik, cəmiyyətdəki həmrəylik, milli təhlükəsizliyin təmin olunması ölkəmizin milli gücünü artıran fundamental amil qismində çıxış edir. Bu sahə gələcəkdə də Azərbaycanın siyasətinin mərkəzində saxlanılacaq. Təsadüfi deyil ki, ictimai-siyasi sabitliyin və milli təhlükəsizliyin təmin olunması ölkəmizin aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının (YAP) seçki platformasında mühüm müddəalardan biri kimi müəyyənləşdirilib.

### Müstəqil Azərbaycanın qurucusu olan Heydər Əliyevin əsasını qoyduğu siyasət

Ölkəmizin bugünkü hərtərəfli inkişafının təməl prinsipini təşkil edən möhkəm daxili sabitlikdən bəhs edərkən müstəqilliyimizin ilk illərində böyük siyasətçi Heydər Əliyevin bu sahədə müstəsna xidmətlərini xatırlamamaq mümkün deyil. Respublikamızda milli təhlükəsizliyin və daxili sabitliyin təmin edilməsi siyasətinin əsası məhz Heydər Əliyev tərəfindən qoyulub. Müstəqilliyimizin ilk illərində bütövlükdə Azərbaycanda ağır vəziyyət yaranmışdı. 1992-ci ilin yazında qeyri-legitim yolla hakimiyyətə gələn AXC- "Müsavat" iqtidarının səriştəsizliyi ucbatından müstəqilliyimiz çox ciddi təhdidlərlə üz-üzə qalmışdı. Problemlər getdikcə artır, xaos dərinləşirdi. Hakimiyyət strukturlarına, o cümlədən silahlı birləşmələrə nəzarəti itirən ozamankı Azərbaycan iqtidarı 1993-cü ilin yayında ölkəni vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qoydu. Belə ağır məqamda insanlar təkidlə Naxçıvanda fəaliyyət göstərən Heydər Əliyevin Azərbaycanın siyasi rəhbərliyinə qayıtmasını tələb edirdilər. Heydər Əliyev həmin ağır günlərdə xalqını tək buraxmadı və respublikamızın rəhbərliyinə qayıtmağa razılıq verdi.

Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi 1993-2003-cü illərdəki fəaliyyəti, heç şübhəsiz ki, dövlət quruculuğunun bütün istiqamətlərini, o cümlədən də ölkənin milli təhlükəsizliyinin təmin olunmasını əhatə edirdi. Müdrik dövlət xadiminin milli maraqlara, dövrün çağırışları və reallıqlarına uyğun siyasəti nəticəsində mərkəzdənqaçma meyllərinin - dövlət çevrilişi cəhdlərinin qarşısı alındı, ictimai-siyasi sabitlik və vətəndaş həmrəyliyi təmin olundu. Təməli qoyulan siyasət, aparılan islahatlar Azərbaycanın demokratik inkişaf yolunda inamla irəliləməsinə təkan verdi.

### Bugünkü Azərbaycanın mənzərəsi: Möhkəm daxili sabitlik, sarsılmaz xalq-iqtidar həmrəyliyi

Sonrakı mərhələdə eyni məzmunlu siyasəti Prezident İlham Əliyev böyük uğurla davam etdirir. Azərbaycanın dövlət başçısının yürütdüyü siyasət xəlqi mahiyyət daşıyır, mühüm qərarlar verilərkən cəmiyyətin sosial sifarişləri mütləq qaydada nəzərə alınır. Bunun da nəticəsində respublikamızın identik nümunəsi formalaşır. Bugünkü Azərbaycanın mənzərəsi möhkəm daxili sabitlik, sarsılmaz xalq-iqtidar həmrəyliyi ilə səciyyələnir.

Hazırda dünyanın müxtəlif bölgələrində arzuolunmaz kataklizmlər, o cümlədən də ayrı-ayrı ölkələrdə daxili ixtişaşlar yaşanır. Dünyadakı bu kimi reallıqlar fonunda Azərbaycanın sabitlik adası kimi fərqlənməsi xüsusi diqqət çəkir. Bəli, çoxlu sayda ölkə sadalaya bilərik ki, onlar məhz daxili sabitliyin pozulması səbəbindən inkişafla bağlı problemlərlə üzləşirlər. Bir anlığa təsəvvürümüzdə canlandıraq: Sabitliyi pozulan, qarşıdurmaların yaşandığı dövlətlərdə nə görəcəyik? Dağıntılar, sıradan çıxan infrastruktur, qardaş qanının axıdılması, insanların köç etməsi... Vətəndaş həmrəyliyi, iqtidar-xalq birliyi olmayan ölkələrin tipik mənzərəsi məhz bu kimi acı təəssüf doğuran məqamlarla səciyyələnir.

Dünyanın ayrı-ayrı regionlarında yaşanan gərginliklərlə müqayisədə Azərbaycandakı vəziyyət tamam fərqli bir rakursdan diqqəti çəkir. Xalqımız öz gələcəyini əmin-amanlıq şəraitində qurur, gələcəyə ümidlə baxır. Möhkəm sabitlik ölkənin perspektiv inkişafı üçün fundamental amil rolunda çıxış edir. Açıq deyə bilərik ki, bu gün anarxiya labirintinə düşən ayrı-ayrı ölkələrə qeyri-sabitlik kənardan, məkrli güc mərkəzləri tərəfindən ixrac olunub. "Ərəb baharı", "rəngli inqilablar" dalğasını xatırlayaq. İqtidar-xalq həmrəyliyi zəif olan bir sıra ölkələrdə insanlar "inqilab missionerləri"nin şirin vədlərinə aldandılar və öz həyatlarını, ölkələrini təhlükələrə doğru çəkdilər. Etiraf edək ki, belə məkrli niyyətlərlə biz də üzləşmişik. Ancaq xalqımızın müdrikliyinin, uzaqgörənliyinin və iqtidarla sıx həmrəyliyinin məntiqi nəticəsi olaraq respublikamızda anarxiya törətmək cəhdlərinin qarşısı qətiyyətlə alındı və milli təhlükəsizliyimiz təmin olundu. Azərbaycan xalqı özünün, ölkənin etibarlı gələcəyini daxili sabitliyin, vətəndaş-iqtidar həmrəyliyinin qorunmasında görür. Bizə kənardan gələn "canıyananlar" lazım deyil. Qarşısıalınmaz milli gücümüz həmrəyliyimizdədir, bir-birimizə, dövlətimizə, Prezidentimizə arxa, dayaq durmağımızdadır. Biz çəkici bir zindana vursaq, bütün məqsədlərimizə çatacağıq. "Uzun illərdir ki, Azərbaycanda sabitlik təmin edilir. Sabitliyin təminatçısı Azərbaycan xalqıdır. Xalqın bizim siyasətə göstərdiyi dəstək bizə güc verir və eyni zamanda, imkan verir ki, islahatları dərinləşdirək və Azərbaycanın uğurlu dayanıqlı inkişafını təmin edək", - deyə dövlətimizin başçısı bildirib.



### Azərbaycanın dünyaya nümunə olan tolerant mühiti

Hazırda dünyanın olduqca narahat mənzərəsinin digər bir mühüm əlaməti mədəniyyətlərarası dialoqla bağlıdır. Bir sıra hallarda sivilizasiyalararası qarşıdurmaların müşahidə edilməsi son dərəcə kədərli təəssüratlar oyadır. Bəşəriyyət sanki geridönüş edir və ayrı-ayrı məkanlarda dinlər, etiqadlar, irqlər arasında qarşıdurmalar açıq müstəviyə keçir. Ən qorxulu cəhət ondan ibarətdir ki, mədəniyyətlərarası dözümsüzlük əksər hallarda müəyyən qüvvələr, hətta dövlətlər səviyyəsində təşviq edilərək qızışdırılır. Bütün səmavi dinlər bəşəriyyəti bərabərliyə və humanizmə çağırır. Təəssüf doğuran haldır ki, bugünkü Avropada hətta dini dəyərlər belə manipulyasiya predmetinə çevrilib. Tam qətiyyətlə deyə bilərik ki, hazırda öz dəyərlərindən və ənənələrindən uzaqlaşan qoca qitədə bir sıra hallarda dini təəssübkeşliyə çağırışlar edilir, islamafobiya həyat normasına çevrilir. Son illərdə Yaxın Şərqdə alovlanan münaqişələrin və müharibələrin ssenariləri bir qayda olaraq Qərb dairələrində hazırlanır. Sadə, günahsız insanlar aclıqdan, səfalətdən, dağıntılardan xilas olamaq naminə Avropaya üz tuturlar. Burada isə onların üzünə qapılar bağlanır. Son bir ildə dünyada baş vermiş bütün anti-İslam təzahürlərinin 80 faizi Avropa ölkələrinin payına düşür. İslamofobiyanın ən yüksək səviyyəyə çatdığı və rəsmi ideologiya kimi tətbiq olunduğu bəzi Avropa ölkələrində, o cümlədən Fransada, İsveçdə, Danimarkada, Niderlandda müqəddəs kitabımız "Qurani-Kərim"in yandırılması, Məhəmməd Peyğəmbərin (s.ə.s) karikaturalarının nəşr edilməsi və sair təhqiramiz hərəkətlər söz azadlığı kimi qələmə verilir ki, bu da qəbuledilməzdir.

Belə bir şəraitdə Azərbaycan dünyaya özünün nümunəvi tolerant mühitini təqdim edir. Tolerantlıq respublikamızda tarixdən gələn ənənədir. Əsrlər boyunca ölkəmizin ərazisində müxtəlif xalqların nümayəndələri əmin-amanlıq şəraitində yaşayaraq öz həyatlarını qurublar. Eyni zamanda, bu gün respublikamızda tarixi ənənələr yaşadılır. Hazırda tolerantlıq cəmiyyətimizin ayrılmaz həyat tərzi kimi qəbul olunur. Ölkəmizdə müxtəlif dinlərin və xalqların nümayəndələri sülh, əmin-amanlıq şəraitində və tolerant mühitdə yaşayırlar. Milli-dini-irqi fərqlilik bizim üçün heç də ayrıcı xətlər təşkil etmir, əksinə biz qürur duyuruq ki, Vətənimiz çoxmillətli və çoxetiqadlıdır. Prezident İlham Əliyev azsaylı dövlət xadimlərindəndir ki, beynəlxalq auditoriyalarda multikulturalizmə çağırışlar edir. Dövlətimizin başçısının təşəbbüsü ilə başlayan "Bakı prosesi" artıq bütün dünyada tanınır və qəbul olunur. Ölkəmiz böyük məmnuniyyətlə mədəniyyətlərarası dialoq forumlarına ev sahibliyi edir. Bu tədbirlərdə həm ölkəmizin unikal multikultural nümunəsi təqdim olunur, həm də beynəlxalq birliyə çağırışlar edilir.

### Gələcək hədəflər

Dövr dəyişdikcə ölkələrin milli təhlükəsizliyi ilə bağlı çağırışlar da yenilənir. Hər bir vətəndaşın, bütün cəmiyyətin və dövlətin təhlükəsizliyinin təmin olunması gələcəkdə də qarşımızda duran mühüm məsələlərdən biri olacaq. Biz son otuz il ərzində ərazi bütövlüyümüzün və suverenliyimizin pozulmasından əziyyət çəkən xalqıq. Buna görə də Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin və konstitusiya quruluşunun hər cür təhdidlərdən qorunması naminə var gücümüzlə çalışmalıyıq. Hazırda dünyada təhlükəli meyllər müşahidə edilir. Bir sıra hallarda milli dövlətlər təhdidlərlə üzləşirlər, onların daxili işlərinə qarışmaq cəhdləri artıb. Bu, yolverilməzdir. Belə hallara, o cümlədən də ideoloji zəmində təxribat törədilməsi cəhdlərinə qarşı ardıcıl mübarizə aparılmalıdır. İndiyədək Azərbaycan məqsədyönlü siyasətində müstəqillik və suverenlik prinsipindən çıxış edib və gələcəkdə də özünün siyasi kursuna sadiq qalacaq. Yuxarıda vurğuladığımız kimi, indiyədək Azərbaycan özünün hədəflərinə cəmiyyətin həmrəyliyi şəraitində çatıb, uğurların əldə olunmasında ölkəmizdə yaşayan bütün xalqların təmsilçilərinin payı var. Biz ölkəmizin tolerantlıq mühitini qorumalı və daha da zənginləşdirməliyik, birgəyaşayışı daim diqqət mərkəzində saxlamalıyıq. Biz artan geosiyasi gərginliklər fonunda milli dövlətlərə qarşı genişlənən informasiya təxribatlarını da nəzərdən qaçırmamalıyıq. Azərbaycanafob qüvvələr ölkəmizin nüfuzuna hansı yollarlasa xələl gətirməkdən ötrü fürsət gözləyirlər. Biz onlara bu fürsəti verməməliyik və informasiya təhlükəsizliyi sahəsində milli maraqların müdafiəsinə hədəflənən siyasəti bundan sonra da davam etdirməliyik.

***Mübariz ABDULLAYEV***

# İntellektual potensial, texnoloji tərəqqi strategiyası...



## "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı" Azərbaycanın elm və innovasiya potensialının güclənməsinə təkan verəcək

Prezident İlham Əliyev "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" sərəncamda dəyişiklik edib. Dövlət başçısının imzaladığı yeni sərəncama əsasən, həmin proqramın müddəti 2028-ci ilə qədər uzadılıb, eyni zamanda, xaricdə təhsil alacaq gənclərin sayı 400-dən 500-ə qaldırılıb. Belə ki, Dövlət Proqramının icrası müddətində hər il 500 nəfərdən çox olmamaqla, ümumilikdə 2000 nəfərədək Azərbaycan Respublikası vətəndaşının xaricdə nüfuzlu ali təhsil müəssisələrində təhsil alması təmin ediləcək. Digər dəyişiklik proqram çərçivəsində bakalavr və magistratura pilləsi ilə yanaşı, doktorantura üzrə də xaricdə təhsil almaq imkanının yaradılmasıdır.

"Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı"nın əsas məqsədi gənclərə xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsilalma imkanları yaratmaqla, onların Azərbaycanın gələcək inkişafını təmin edəcək və qlobal çağırışlara cavab verəcək müasir texnologiyaları çevik mənimsəyən, praktiki bilik və bacarıqlara yiyələnən, müasir və gələcək əmək bazarının tələblərinə cavab verən rəqabətqabiliyyətli, yüksəkixtisaslı peşəkar kadrlar kimi hazırlanmasını təmin etməkdir. Eyni zamanda, yeni dövrün tələblərinə cavab verən elmtutumlu kadr institutunun formalaşdırılması, inkişaf hədəflərinə və prioritet istiqamətlərə yaradıcı gənclərin təhsilinin doktorantura səviyyəsində hazırlığının təmin edilməsi də zəruri strateji məqsədlərdir.

Müasir dünyada baş verən proseslərin təhlili göstərir ki, qabaqcıl ölkələrin qazandığı uğurların təməlində, ilk növbədə, elm və təhsil, intellektual potensial və texnoloji tərəqqi dayanır. Bu məqsədlə təhsil sahəsində həyata keçirilən ən mühüm tədbirlərdən biri kimi 2007-ci ildən başlayaraq gənclərin xarici ölkələrin ən nüfuzlu ali məktəblərində təhsil almaları təmin olunmaqdadır. Bu baxımdan 15 ildən artıqdır ki, davamlı şəkildə icra olunan gənclərin xaricdə təhsili üzrə Dövlət proqramları gənclərin təhsil almaları üçün bərabər imkanların təmin edilməsində mühüm rol oynayır, ölkəmizdə insan kapitalının keyfiyyətinin artırılmasına töhfə verir. Bütün ölkələrin tərəqqisində sənaye və innovasiyalarda irəliləməsində insan kapitalının əsas latbazası kimi rəqabətli təhsil və təhsilalanlar həlledici rola malikdir. Bu gün elmtutumlu təhsil ölkənin iqtisadi artımının və elmi-texniki potensialın artırılmasının ən mühüm amilidir. Ona görə də, təhsilə, gənc nəslin təhsilalma imkanlarının artırılmasına qoyulan sərmayə ölkəmizin gələcək tərəqqisinə yönəlmiş yatırımdır.

Azərbaycan hökumətinin təhsil sərmayələri hesabına ötən dövr ərzində icra olunmuş "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı", "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" sənədləri minlərlə azərbaycanlı gəncin təhsilin müxtəlif pillələri üzrə dünyanın ən nüfuzlu universitetlərində təhsil almasına, Vətənə döndükdən sonra layiqli işlə təmin olunmasına və Azərbaycanın dövlət idarəçiliyində, özəl sektorun inkişafında və yeni texnoloji modellərin tətbiqində öz töhfələrini verməsinə səbəb olub.

Hazırda dünya iqtisadiyyatında müşahidə olunan texnoloji dəyişikliklər isə rəqəmsal bacarıqlara malik, yeni texnologiyaları aktiv tətbiq edən, dünyada artan rəqabətə cavab verə biləcək yüksəkixtisaslı insan kapitalının formalaşmasını ön plana çıxarmaqdadır. Xüsusilə də Dördüncü Sənaye İnqilabına transformasiyanın yeni fazaya keçid alması, industriual cəmiyyət quruculuğunun genişlənməsi və dövlət idarəetməsində institusional islahatların davam etdirilməsi dövlətin müxtəlif qurumlarında və eləcə də özəl strukturlarda yeni trendlərə uyğun kadr təminatını zəruri edir. Yeni strateji dövrün çağırışları, həmçinin inkişaf məqsədləri yaradıcı və innovativ düşüncəli gənclərin fəallığının və idarəçilikdə rolunun artmasını qarşısıalınmaz prosesə çevirməkdədir. İnkişaf etmiş ölkələrdə ÜDM-in artımının 80-95 faizi məhz innovasiyaların - yeni texnologiyaların yaratdığı məhsullar, işlər və xidmətlər hesabına gerçəkləşir.

Məhz bu strateji çağırışlara uyğun olaraq Azərbaycan hökuməti milli inkişaf məqsədlərinə nail olmaq üçün kadr arxitekturasını daha da möhkəmləndirmək niyyətindədir. Bu baxımdan "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı" Azərbaycan gənclərinin qabaqcıl ölkələrin xarici ali təhsil müəssisələrində yüksək ali təhsilli peşəkar kadr kimi yetişərək Azərbaycan ölkəmizin gələcək yeni inkişaf prioritetlərinin həyata keçirilməsində iştirakını təmin edəcək. Ümumiyyətlə, Dövlət Proqramının icrası ölkəmizdə elmi kadr hazırlığının səmərəliliyinin yüksəldilməsi, ölkənin elm və innovasiya potensialının gücləndirilməsi istiqamətində mühüm irəliləyişlərə təkan verəcək. Həmçinin, ali təhsil müəssisələrinin beynəlxalq reytinqinin yüksəlməsinə və elm-tədqiqat profilli təhsil müəssisələrinə çevrilməsinə şərait yaradacaqdır.

***E.CƏFƏRLİ***

# "Bir daha sabitliyə və inkişafa səs verəcəyik"



Azərbaycan Respublikasının Milli Məclisinə sentyabrın 1-də keçiriləcək növbədənkənar seçkilərdə 102 saylı Şəmkir şəhər seçki dairəsindən Yeni Azərbaycan Partiyasının namizədi, VI çağırış Milli Məclisin sədri Sahibə Qafarovanın təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə görüşləri davam edir. Növbəti görüş Şəmkir şəhərinin mərkəzində keçirilib.



Görüşdən əvvəl Ulu Öndər Heydər Əliyevin rayonun mərkəzindəki abidəsi və Şəhidlər Xiyabanı ziyarət edilib.

YAP Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyev Yeni Azərbaycan Partiyasının seçki platforması haqqında məlumat verib.

Görüşdə çıxış edən Sahibə Qafarova Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəlik məharəti, Ordumuzun əsgər və zabitlərinin qəhrəmanlığı və fədakarlığı sayəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyinin tam bərpasının yeni reallıqlar yaratdığını deyib. O, Yeni Azərbaycan Partiyasının parlament seçkilərinə "Yeni dövrə Yeni Azərbaycanla!" şüarı ilə qatıldığına diqqət çəkib.

Sahibə Qafarova seçkilərdə Ulu Öndər Heydər Əliyevin yaratdığı və müasir dövlətçiliyimizin inkişafında müstəsna rola malik, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə cəmiyyətin aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının təmsilçisi kimi iştirak etdiyini qeyd edərək belə bir partiyanın namizədi olmağın son dərəcə böyük məsuliyyət yaratdığını bildirib. O əminliklə bildirib ki, qarşıdakı seçkilərdə formalaşacaq yeni parlament xalqın siyasi və mənəvi yetkinliyini nümayiş etdirəcək, Azərbaycanın xoşbəxt gələcəyinə, rifahına və inkişafına xidmət edəcək.

Görüşdə çıxış edən seçicilər - Aydan Hacıyeva, Müsənbər Kazımova, Aidə Həsənova və digərləri Milli Məclisə növbədənkənar seçkilərdə fəallıq göstərəcəklərini və Yeni Azərbaycan Partiyasının namizədini yekdilliklə dəstəkləyəcəklərini ifadə edərək "Bir daha sabitliyə və inkişafa səs verəcəyik",- deyə vurğulayıblar.

# YAP ölkəmizin inkişafına dəyərli töhfələr verir



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təbliğat-təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 2 saylı Şərur-Kəngərli seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Siyavuş Novruzovun Təzəkənd və Püsyan kənd seçiciləri ilə görüşü keçirilib.



Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə canlarından keçən şəhidlərimizin əziz xatirəsi anılıb.

YAP Şərur rayon təşkilatının sədri Əmir Babayev qarşıdan gələn parlament seçkilərinin ölkəmizin ictimai-siyasi həyatında mühüm hadisə olduğunu qeyd edib. O, Ulu Öndər Heydər Əliyevin uzaqgörənliyi və qətiyyəti sayəsində yaradılan Yeni Azərbaycan Partiyasının Prezident İlham Əliyevin rəhbərliyi ilə zəngin və şərəfli inkişaf yolu keçdiyini söyləyib.

YAP tərəfindən deputatlığa namizədliyi irəli sürülmüş Siyavuş Novruzov görüş zamanı hüquqi və demokratik dövlət olan Azərbaycanda sentyabrın 1-də keçiriləcək parlament seçkilərinin əhəmiyyətindən, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən daxili və xarici siyasət kursunun uğurlu nəticələrindən bəhs edib.

O, YAP-ın ölkəmizin tərəqqisində, müstəqil dövlətçiliyimizin əsaslarının möhkəmlənməsində tarixi rolu və misilsiz xidmətləri barədə danışaraq deyib: "Hər hansı bir siyasi partiyanın gücünü və nüfuzunu müəyyən edən mühüm amillərdən biri onun seçkilərdə əldə etdiyi nəticələrdir. Əminliklə söyləmək olar ki, partiyamız sentyabrın 1-də keçiriləcək növbədənkənar parlament seçkilərində də xalqın dəstəyi və etimadı əsasında növbəti möhtəşəm qələbə qazanacaq".

Görüşlərdə çıxış edən şəhid atası Rəhman Zamanov, ərazi partiya təşkilatının sədri Fazil Rəcəbov və digər seçicilər ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan genişmiqyaslı islahatların vətəndaş məmnunluğunu artırdığını, əhalinin rifahının daha da yaxşılaşmasına xidmət edən addımların Azərbaycanın qüdrətinin artmasını şərtləndirdiyini diqqətə çatdırıblar.

Seçicilər ölkəmizdə həyata keçirilən dövlət siyasətinin mərkəzində vətəndaşların rifahı və mənafeyinin dayandığını diqqətə çatdıraraq qeyd ediblər ki, hər bir vətəndaşın öz üzərində dövlətin hərtərəfli qayğısını hiss etməsi təqdirəlayiq haldır. Onlar Prezident İlham Əliyevin muxtar respublikanın inkişafına böyük önəm verməsini məmnunluq və minnətdarlıq hissi ilə diqqətə çatdırıblar.

Seçicilər YAP-ın xalqın etimadını doğrultduğunu, ölkəmizin inkişafına dəyərli - layiqli töhfələr verdiyini bildiriblər. Onlar daha qüdrətli Azərbaycan naminə YAP-ın namizədinə səs verəcəklərini qətiyyətlə ifadə ediblər.

# "Ölkəmizin işıqlı sabahına səs verək"



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 61 saylı Qusar seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Azər Badamovun Qusar rayonu Yuxarı Zeyxur kəndində və Samur qəsəbəsində seçicilərlə görüşü keçirilib.

YAP Qusar rayon təşkilatının sədri David İbramxəlilov Yeni Azərbaycan Partiyasının böyük uğurlara imza atdığını və budəfəki seçkilərə də qələbə əzmi ilə getdiyini söyləyib.

Çıxış edən deputatlığa namizəd Azər Badamov YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib. O, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən siyasətin uğurlarından geniş bəhs edib. O, bildirib ki, seçkilərin bütün ölkə ərazisində keçirilməsi müasir dövlətçilik tariximizin qürurverici səhifəsi və Azərbaycanın qüdrətinin ifadəsidir.



Tədbirdə təşviqat qrupunun üzvü Fərhad Pirmətov, kənd ağsaqqalı Şair Bədirxanov, həmçinin görüş iştirakçılarından Mirzə İsmayılov, Hörmət Ağacanov, Roza Piraliyeva, Tənzilə Məmmədova və digərləri çıxış edərək uğurlarımızın davamı naminə seçiciləri YAP-ın namizədinə səs verməyə çağırıblar. "Yeni Azərbaycan Partiyasına bir daha etimad göstərərək ölkəmizin işıqlı sabahına səs verək", - deyə vurğulanıb.

# Ümumxalq partiyasının fəaliyyəti təqdirlə qarşılanır



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 67 saylı Sabirabad seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Əhliman Əmiraslanovun seçicilərlə görüşü keçirilib.



YAP Sabirabad rayon təşkilatının sədri Varis Rüstəmov bildirib ki, Yeni Azərbaycan Partiyası bu zamana qədər Azərbaycanın inkişafında müstəsna rol oynayıb və bundan sonra da ölkəmizin tərəqqisi naminə reallaşdırılacaq strateji kursa öz töhfələrini verəcək. V.Rüstəmov parlament seçkilərində vətəndaşların fəal iştirakını onların Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsinə verdikləri dəyərli töhfə kimi qiymətləndirib.

Çıxış edən deputatlığa namizəd Əhliman Əmiraslanov YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib. O bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin mərkəzində vətəndaşların rifahı və mənafeyi dayanır: "İnsan amili və vətəndaş mənafeyinə əsaslanan sosialyönümlü islahatlar nəticəsində əhalinin həyat şəraiti yaxşılaşdırılıb. Cəmiyyətin bütün təbəqələri dövlətin hərtərəfli qayğısı ilə əhatə olunub. Əhalinin rifahının yüksəldilməsi bundan sonra da diqqət mərkəzində olacaqdır".

Əhliman Əmiraslanov çıxışında seçiciləri parlament seçkilərində fəal iştirak etməyə və ən layiqli namizədə səs verməyə çağırıb.

Çıxış edən Sehfulla Mehdiyev, Vüqar Kərimov və Xalid Cəfərov ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan siyasətin təqdirəlayiq olduğunu vurğulayaraq Yeni Azərbaycan Partiyasının fəaliyyətini yüksək qiymətləndiriblər.

Seçicilər 1 sentyabr seçkilərində YAP-ın namizədinə səs verəcəklərini vurğulayıblar.

# "Bütün qələbələrimiz Heydər Əliyev yolu ilə bağlıdır"



Azərbaycan Respublikasının Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 101 saylı Samux-Şəmkir seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Mübariz Qurbanlının Samux şəhərində seçicilərlə görüşü keçirilib.



Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib.

YAP Samux rayon təşkilatının sədri Gündüz Bayramov qədirbilən Azərbaycan xalqının hər zaman Ümummilli Lider Heydər Əliyevin zəngin dövlətçilik irsinə, əbədiyaşar ideyalarına sadiq olduğunu bildirib. O, YAP-ın bugünədək keçirilən bütün seçkilərdə olduğu kimi, növbədənkənar parlament seçkilərində də möhtəşəm qələbə qazanacağına inamını ifadə edib.

Çıxış edən deputatlığa namizəd Mübariz Qurbanlı əvvəlcə YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib. O qeyd edib ki, çoxəsrlik tarixində heç vaxt indiki qədər qüdrətli olmayan Azərbaycanın bütün uğurları və möhtəşəm qələbələri Heydər Əliyev yolu ilə bağlıdır: "Müstəqillik dönəmində Ulu Öndərin ölkəmizə rəhbərlik etdiyi 1993-2003-cü illər Azərbaycanın ən yeni tarixinə müstəqil dövlət quruculuğu, sosial-iqtisadi inkişaf və beynəlxalq aləmdə mövqelərimizin möhkəmlənməsi dövrü kimi həkk olunub, tarixi Zəfərimizin bünövrəsi qoyulub. Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev ölkəmizə misilsiz tarixi nailiyyətlər qazandırıb".

Tədbirdə şəhid atası Xaləddin İsgəndərov, Tahir Bağırov və digərləri çıxış edərək seçiciləri parlament seçkilərində fəal iştirak etməyə və YAP-ın namizədinə səs verməyə çağırıblar.

# "Qalib Azərbaycanla qürur duyuruq!"



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 118 saylı Ağdam-Xocalı seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Elman Məmmədovun Bərdə şəhərində məskunlaşmış Ağdam və Xocalı rayonlarından olan seçicilərlə görüşü keçirilib.



Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi ehtiramla yad olunub.

Görüşdə YAP Ağdam rayon təşkilatının sədri Mansur Quliyev və YAP Xocalı rayon təşkilatının sədri Vahid Əliyev çıxış ediblər. Bildirilib ki, Ümummilli Lider Heydər Əliyevin qurucusu olduğu YAP şərəfli inkişaf yolu keçərək bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə yeni-yeni nailiyyətlərə imza atır.

Deputatlığa namizəd Elman Məmmədov çıxışında YAP-ın seçki platforması haqqında məlumat verib. O, müstəqil, hüquqi və demokratik dövlət olan Azərbaycanda sentyabrın 1-də keçiriləcək parlament seçkilərinin əhəmiyyətindən, Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa-quruculuq işlərindən və qarşıda duran hədəflərdən bəhs edib.

E.Məmmədov seçiciləri parlament seçkilərində fəal olmağa və layiqli namizədə səs verməyə çağırıb.

Tədbir iştirakçılarından Məhsəti Hüseynova, Tural Mərdanov, İradə Quliyeva və başqaları çıxış edərək qalib Azərbaycanla qürur duyduqlarını və seçkilərdə YAP-ın namizədinə səs verəcəklərini bildiriblər.

# "Biz birlikdə güclüyük!"



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 53 saylı Yevlax-Mingəçevir seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Əli Hüseynlinin Yevlax rayonunun Aran qəsəbəsinin, Yəldili, Quşçu və Xaldan kəndlərinin seçiciləri ilə görüşü keçirilib.

Görüşlərdə çıxış edən YAP Yevlax rayon təşkilatının sədri Rafiq Əliyev Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın böyük inkişaf yolu keçdiyini diqqətə çatdırıb. O, Yeni Azərbaycan Partiyasının əldə etdiyi nailiyyətlərdən söz açaraq parlament seçkilərində YAP-ın qələbə qazanmasının ölkəmizin uğurlu gələcəyi naminə son dərəcə önəmli olduğunu bildirib.

Deputatlığa namizəd Əli Hüseynli seçicilərə öncə Yeni Azərbaycan Partiyasının seçki platforması haqqında ətraflı məlumat verib. O qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dünyada nüfuz və söz sahibi olan qüdrətli dövlətə çevrilib. Vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyevin müdrik siyasi irsinə sadiq olan Prezident İlham Əliyev bütöv və qüdrətli Azərbaycan naminə uğurlu siyasət həyata keçirməklə bir daha sübuta yetirib ki, O, sözü imzası qədər dəyərli olan Liderdir.

Əli Hüseynli seçiciləri Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə və firavan gələcəyə doğru birgə addımlamağa çağırıb.

Görüş zamanı çıxış edən seçicilər 1 sentyabr seçkilərində fəal iştirak edəcəklərini və Yeni Azərbaycan Partiyasının namizədinə səs verəcəklərini diqqətə çatdırıblar. "Biz birlikdə güclüyük!", - deyə vurğulanıb.

Qeyd edək ki, Əli Hüseynli rayonun Aran qəsəbəsində, Quşçu və Yəldili kəndlərində şəhid ailələrini ziyarət edib, onların qayğıları ilə maraqlanaraq, Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın bu kateqoriyadan olan şəxslərə daim xüsusi diqqət və qayğı göstərdiyini diqqətə çatdırıb.



# "Davamlı və dayanıqlı inkişaf bundan sonra da diqqət mərkəzində olacaq"



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 43 saylı Sumqayıt ikinci seçki dairəsi üzrə deputatlığa namizədliyi irəli sürülmüş Tahir Mirkişilinin YAP Sumqayıt şəhər təşkilatının qərargahında seçicilərlə növbəti görüşü keçirilib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib.

YAP Sumqayıt şəhər təşkilatının sədri Ramiz Hüseynov partiyanın hər zaman xalqa xidmət prinsipini əsas götürdüyünü qeyd edib. O, YAP-ın "Yeni dövrə Yeni Azərbaycanla!" şüarı ilə parlament seçkilərində iştirak etdiyini diqqətə çatdıraraq seçicilərin dəstəyi ilə qarşıya qoyulan hədəflərin reallaşdırılacağına əminliyini bildirib.

Deputatlığa namizəd Tahir Mirkişili Azərbaycanın çox mühüm ictimai-siyasi proses ərəfəsində olduğunu - sentyabrın 1-də ölkəmizdə parlament seçkilərinin keçiriləcəyini diqqətə çatdırıb. Tahir Mirkişili YAP-ın seçki platforması haqqında ətraflı danışaraq vurğulayıb ki, ölkəmizdə müstəqillik dövründə köklü sosial-iqtisadi islahatlar yolu ilə bazar iqtisadiyyatına keçid təmin edilib, əlverişli biznes mühiti yaradılıb, müasir infrastruktur quruculuğu, qlobal enerji və nəqliyyat layihələri reallaşdırılaraq iqtisadiyyatın davamlı və dayanıqlı inkişafına nail olunub. Ölkənin inkişafı bundan sonra da diqqət mərkəzində olacaqdır.



Görüşdə çıxış edən Təbrik Quliyev, Mətanət Məhərrəmova, Şakir Abuşov seçiciləri öz fəaliyyətində xalqın mənafeyini rəhbər tutan Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə çağırıblar.

# "Məqsədimiz yeni qələbələrə nail olmaqdır"

2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 51 saylı Şirvan seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Heydər Əsədovun YAP Şirvan şəhər təşkilatının qərargahında seçicilərlə görüşü keçirilib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib.





YAP Şirvan şəhər təşkilatının sədri Zahir Qəhrəmanov bildirib ki, Prezident, Yeni Azərbaycan Partiyası Sədri İlham Əliyevin rəhbərliyi ilə xalqımız yeni-yeni zəfərlərə imza atmaqdadır. O, çıxışında Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində qazanılan uğurları və qarşıda duran hədəfləri diqqətə çatdıraraq seçiciləri YAP-ın namizədinə səs verməyə çağırıb.

Çıxış edən deputatlığa namizəd Heydər Əsədov YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib. O bildirib ki, Ulu Öndər Heydər Əliyevin parlaq ideyaları Azərbaycanın uğurlarının əsasını təşkil edir: "Qazanılan çoxsaylı qələbələr Yeni Azərbaycan Partiyasının ümumxalq partiyası olduğunu sübut edib. Hazırda qarşımızda dayanan başlıca məqsəd yeni qələbələrə nail olmaqdır".

Deputatlığa namizəd seçiciləri parlament seçkilərində fəal iştirak etməyə və ən layiqli namizədə səs verməyə çağırıb.

Tədbirdə təbliğat qrupunun üzvləri Elçin Məlikov, Əfqan Həsənov və Samit Həsənov çıxış edərək YAP-ın ölkəmizə mühüm nailiyyətlər qazandırdığını bildiriblər.

Çıxış edən seçicilər Turə Həmidova, Qardaş Abuzərov, Firuzə Babayeva, Səlim Mirzəyev, Xürrəm Qəhrəmanov və Hümbət Cəbiyev YAP-ın namizədinə səs verəcəklərini vurğulayıblar.

# "Uğurlarımızın davamına səs verəcəyik"



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 39 saylı Gəncə ikinci seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Pərvin Kərimzadənin YAP Gəncə şəhər təşkilatının qərargahında seçicilərlə növbəti görüşü keçirilib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib.

YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov parlament seçkilərinin ölkəmizin ictimai-siyasi həyatında mühüm önəm daşıdığını diqqətə çatdırıb. O bildirib ki, Azərbaycanın düşmən üzərindəki tarixi Zəfərindən sonra yeni dövr başlayıb. Bu gün Azərbaycan yeni reallıqlar fonunda inkişafın növbəti mərhələsinə qədəm qoyub.

Çıxış edən deputatlığa namizəd Pərvin Kərimzadə YAP-ın seçki platforması haqqında ətraflı məlumat verərək bildirib ki, partiya Azərbaycan cəmiyyətinin aparıcı siyasi qüvvəsidir. O qeyd edib ki, həyata keçirilən məqsədyönlü siyasət sayəsində ölkəmiz bütün sahələrdə diqqətəlayiq uğurlara imza atıb.

Tədbirdə çıxış edənlər Azərbaycanın davamlı yüksəlişi naminə seçiciləri parlament seçkilərində YAP-ın namizədinə səs verməyə çağırıblar. Seçicilər isə "Uğurlarımızın davamı üçün YAP-ın namizədinə səs verəcəyik", - deyə vurğulayıblar.



# YAP yüksək nüfuza malikdir




Azərbaycan Respublikasının Milli Məclisinə sentyabrın 1-də keçiriləcək növbədənkənar seçkilərdə Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 106 saylı Tovuz seçki dairəsindən namizədliyi irəli sürülmüş Nizami Səfərov seçicilərlə növbəti görüşünü keçirib.

YAP Tovuz rayon təşkilatının sədri Nihad Pənahov çıxış edərək bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan tarixi nailiyyətlər qazanır. O, Azərbaycanın hazırda regionun lider dövləti olduğunu, ölkəmizin beynəlxalq aləmdə mövqeyinin günü-gündən gücləndiyini diqqətə çatdırıb.

Deputatlığa namizəd Nizami Səfərov YAP-ın Azərbaycan cəmiyyətinin aparıcı siyasi kimi yüksək nüfuza malik olduğunu vurğulayaraq partiyanın seçki platforması haqqında ətraflı məlumat verib.

N.Səfərov çıxışında seçiciləri parlament seçkilərində fəal iştirak etməyə və ən layiqli namizədə səs verməyə çağırıb. O, deputat seçiləcəyi təqdirdə göstərilən etimadı doğrultmağa çalışacağına söz verib.

Sonra təşviqat qrupunun üzvləri Paşa Muradov, Nəriman Şirinov çıxış edərək yeni dövrün yeni hədəflərinin reallaşması naminə parlament seçkilərində YAP-ın namizədinə səs verməyə çağırıblar.




# Müasir tariximiz möhtəşəm uğurlarla zəngindir



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 114 saylı seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Vüqar İskəndərovun Şəki rayonu, Qoxmuq kəndində seçicilərlə görüşü keçirilib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirələri ehtiramla yad edilib.

YAP Şəki rayon təşkilatının sədri Daşqın Mikayılov çıxış edərək dünənin, bu günün və gələcəyin partiyası olan Yeni Azərbaycan Partiyasının müstəqil Azərbaycanın qüdrətli dövlətə çevrilməsində müstəsna rol oynayıb. O, parlament seçkilərinə "Yeni dövrə Yeni Azərbaycanla!" şüarı ilə qatılan YAP-ın seçki platforması haqqında məlumat verib.

Çıxış edən deputatlığa namizəd Vüqar İskəndərov daim müstəqil Azərbaycanın daha da güclənməsi, çiçəklənməsi, müasirləşməsi istiqamətində məqsədyönlü fəaliyyət göstərən YAP-ın bütün seçkilərdə böyük fəallıq nümayiş etdirdiyini və tarixi uğurlara nail olduğunu söyləyib.

"Müasir tariximiz möhtəşəm uğurlarla zəngindir", - deyən deputatlığa namizəd seçiciləri parlament seçkilərində fəal iştirak etməyə və ən layiqli namizədə səs verməyə çağırıb.

Tədbirdə çıxış edən seçicilər qarşıda duran bütün hədəflərin reallaşdırılması üçün Yeni Azərbaycan Partiyasına etimad göstərəcəklərini bildiriblər.



# “Azərbaycanı zirvəyə yüksəldən siyasət xalqımıza yeni nailiyyətlər qazandıracaq”



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 37 saylı Qaradağ seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Aydın Hüseynovun Səngəçal qəsəbəsində seçicilərlə görüşü olub.

Görüş zamanı deputatlığa namizəd Aydın Hüseynov seçicilərə YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən islahatlardan, bərpa-quruculuq işlərindən söhbət açıb, qazanılan nailiyyətləri diqqətə çatdıraraq yeni hədəflərdən bəhs edib. A.Hüseynov vurğulayıb ki, 30 ilə yaxın bir müddətdə erməni vandalları tərəfindən dağıdılan, xarabalığa çevrilən yaşayış məntəqələrimiz yenidən dirçəldilir: “Azad olunmuş ərazilərə həyat qaytarılır, yeni yaşayış binaları, məktəblər, tibb ocaqları tikilir, bütün lazımi infrastruktur yaradılır. Biz bundan sonra qalib, qürurlu xalq kimi yaşayacağıq. Beynəlxalq müstəvidə öz sözümüzü demişik və deyəcəyik. Əminəm ki, bundan sonra bizim xalqımızı təhlükəsiz və xoşbəxt həyat gözləyir”.



Öz növbəsində seçicilər Azərbaycanı zirvəyə yüksəldən siyasətin xalqımıza yeni uğurlar qazandıracağına əmin olduqlarını bildirərək 1 sentyabr seçkilərində YAP-ın namizədinə səs verəcəklərini vurğulayıblar.

# Tarixi uğurlardan yeni hədəflərə...




2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 48 saylı Abşeron birinci seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Nigar Məmmədovanın YAP Abşeron rayon təşkilatının qərargahında seçicilərlə görüşü keçirilib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi ehtiramla yad olunub.

YAP Abşeron rayon təşkilatının sədri Abbas Əliyev parlament seçkilərində hər bir vətəndaşın iştirakının əhəmiyyətindən bəhs edib. O, xalqın etimadını qazanaraq siyasi sistemin aparıcı qüvvəsinə çevrilmiş YAP-ın növbəti dəfə inamlı qələbə qazanmaq iqtidarında olduğunu vurğulayıb.

Çıxış edən deputatlığa namizəd Nigar Məmmədova əvvəlcə YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib. Qeyd edib ki, müasir müstəqil Azərbaycan bu gün Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm uğurlara imza atmaqdadır. Müxtəlif sahələrdə aparılan islahatların aparılması, Azərbaycanın müəllifi olduğu beynəlxalq əhəmiyyətli layihələrin uğurla reallaşdırılması ölkəmizi daha da gücləndirib.

Sosial, iqtisadi, siyasi və digər sahələrdə əldə olunan müsbət nəticələr diqqətə çatdırılaraq, qarşıda duran hədəflərə nəzər salınıb.

Tədbirdə, həmçinin təşviqat qrupunun üzvləri - şəhid Elçin Həsənlinin anası Xatirə İsmayılova və Teyyubə Hüseynova çıxış ediblər.



Çıxışlarda tarixi Zəfərimizin əhəmiyyətindən danışılıb, xalqımızın bundan sonra da Prezident İlham Əliyevin ətrafında sıx birləşərək mühüm uğurlar qazanacağına əminlik ifadə olunub. Onlar seçiciləri YAP-ın namizədinə səs verməyə çağırıblar.

Qeyd edək ki, deputatlığa namizəd Nigar Məmmədova Güzdək qəsəbəsində də seçicilərlə görüşüb.

# Zəfərlərə davam!



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təbliğat-təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 52 saylı Yevlax seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş İlham Məmmədovun Yevlax rayonunun Kövər kəndində seçicilərlə görüşü keçirilib.

Görüşdə çıxış edən YAP Yevlax rayon təşkilatının sədr müavini Tural İsmayılov bildirib ki, Ümummilli Lider Heydər Əliyev müasir müstəqil və qüdrətli Azərbaycanın banisidir: “Ölkəmizin milli maraqlarını hər şeydən üstün tutaraq xalqımız qarşısında misilsiz xidmətlər göstərmiş dahi şəxsiyyətin müdrik siyasəti nəticəsində Azərbaycan bu gün inkişaf yolundadır. Prezident, Müzəffər Ali Baş Komandan, partiyamızın Sədri İlham Əliyevin məqsədyönlü siyasəti ölkəmizə tarixi uğurlar qazandırmaqdadır”.

Tədbirdə çıxış edən deputatlığa namizəd İlham Məmmədov əvvəlcə seçicilərə YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib. O bildirib ki, Heydər Əliyev ideyaları yaşayır, Azərbaycanın firavan gələcəyini layiqincə təmin edir. Qeyd edilib ki, ölkəmiz sürətlə inkişaf edir və öz qüdrətini artırır. Azərbaycanın uğurlu inkişaf yolu keçməsi Prezident İlham Əliyevin müdrik siyasətinin real nəticəsidir: “Azərbaycan xalqının iradəsini ifadə edən Prezident İlham Əliyev ölkəmizi ən uca zirvəyə yüksəldib”.



Görüşdə çıxış edən seçicilər də YAP-ın namizədinə səs verəcəklərini vurğulayıblar. “Zəfərlərə davam etmək üçün Yeni Azərbaycan Partiyasına bir daha etimad göstərəcəyik”, - deyə qeyd edilib.

# “Gənclərin seçimi Yeni Azərbaycan Partiyasıdır!”




2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 109 saylı Qazax seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Səməd Seyidovun ilk dəfə səs verəcək gənclərlə görüşü keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib.

YAP Qazax rayon təşkilatının sədri Anar Nəbiyev ölkədə tarixi ənənələrə, milli-mənəvi dəyərlərə, dövlətçilik maraqlarına və zamanın çağırışlarına uyğun gənclər siyasətinin həyata keçirildiyini, bunun nəticəsində mütərəqqi düşüncəli, intellektual, möhkəm əqidəli, sağlam və zəngin mənəviyyatlı vətənpərvər Azərbaycan gəncliyinin formalaşdığını diqqətə çatdırıb.

Çıxış edən deputatlığa namizəd Səməd Seyidov YAP-ın seçki platformasında əksini tapan hədəflərdən danışıb. O bildirib ki, milli-mənəvi dəyərlərə sadiq vətənpərvər gəncliyin formalaşdırılması istiqamətində məqsədyönlü fəaliyyətin davam etdirilməsi, Azərbaycan gəncliyinin fiziki və mənəvi inkişafı əsas prioritetlərdəndir: “Gənclərin təhsil və peşə hazırlığı səviyyəsinin yüksəldilməsi, məşğulluğu və karyera quruculuğu, elmi, mədəni, innovativ və yaradıcılıq potensialının artırılması, könüllülər hərəkatının inkişafı üzrə tədbirlərin davam etdirilməsi də yeni dövrün yeni hədəfləri sırasındadır”.

Səməd Seyidov çıxışında gəncləri parlament seçkilərində fəal iştirak etməyə və ən layiqli namizədə səs verməyə çağırıb. “Əminik ki, bu dəfə də gənclərin seçimi Yeni Azərbaycan Partiyası olacaqdır”, - deyə vurğulanıb.



Görüşdə Xatın Hüseynxanova, Barat Alıyev, Pəri İbrahimova, Məmməd Yusifov, Bəsti Ələkbərova, Elxan Abdullayev və digərləri çıxış edərək uğurlarımızın davamı naminə seçiciləri parlament seçkilərində YAP-ın namizədinə səs verməyə çağırıblar.

Qeyd edək ki, həmin gün deputatlığa namizəd Səməd Seyidovun Kosalar kəndində də seçicilərlə görüşü olub.

# “YAP xalqımızın alternativsiz seçimidir”



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 30 saylı Suraxanı birinci seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Sevinc Fətəliyevanın YAP Suraxanı rayon təşkilatının qərargahında seçicilərlə görüşü keçirilib.

YAP Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov Yeni Azərbaycan Partiyasının parlament seçkilərinə yüksək səviyyədə hazırlaşdığını diqqətə çatdırıb. O qeyd edib ki, 2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərdə Azərbaycan xalqı yenidən Heydər Əliyev yoluna sədaqətini ifadə edəcək, Prezident İlham Əliyevin ölkəmizə böyük uğurlar qazandıran müstəqil siyasətinə birmənalı dəstək verəcək.

Çıxış edən deputatlığa namizəd Sevinc Fətəliyeva YAP-ın seçki platforması barəsində məlumat verərək bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində dövlətimiz yeni inkişaf mərhələsinə qədəm qoyub. “Şübhə yoxdur ki, bu inkişaf davam edəcək, yeni hədəflərin reallaşdırılması nəticəsində Azərbaycanın qüdrəti daha da artacaqdır”, - deyən S.Fətəliyeva YAP-ın Azərbaycan xalqının alternativsiz seçimi olduğunu vurğulayıb.

Namizəd sonda seçiciləri səsvermə hüquqlarından istifadə edərək seçkilərdə fəal iştirak etməyə dəvət edib.



Görüşdə seçicilər Səadət Məmmədova, Tünzalə Süleymanova, Ədalət Mahmudov və digərləri çıxış edərək YAP-ın namizədinə səs verəcəklərini bildiriblər.

# Azərbaycan xalqı YAP-a böyük inam bəsləyir




2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 11 saylı Binəqədi-Qaradağ seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Səbinə Xasayevanın YAP Binəqədi rayon təşkilatında seçicilərlə görüşü keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib.

YAP Binəqədi rayon təşkilatının sədri Vüsar İsmayılov bildirib ki, ölkəmiz regionun lider dövləti olaraq çox mühüm uğurlara imza atıb: “Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasətin Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilməsi Azərbaycana daha möhtəşəm nailiyyətlər qazandıracaqdır”.

Deputatlığa namizəd Səbinə Xasayeva çıxışında YAP-ın seçki platformasından ətraflı bəhs edib. Onun sözlərinə görə, Yeni Azərbaycan Partiyasının bütün seçkilərdə qələbə qazanması xalqın Heydər Əliyev ideyalarına sədaqətinin, dövlət başçısı İlham Əliyevin siyasətinə dəstəyinin bariz təzahürüdür: “Partiya ötən illər ərzində ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak edib, xalqımızla birgə addımlayaraq ölkəmizə mühüm uğurlar qazandırıb. Məhz bu səbəbdəndir ki, Azərbaycan xalqı Yeni Azərbaycan Partiyasına böyük inam bəsləyir”.



Tədbirdə, Anar Nağıyev, Faiq Qocayev və digərləri çıxış edərək seçiciləri YAP-ın namizədlərinə səs verməyə çağırıblar.

# Seçkilər YAP-ın zəngin və şərəfli tarixinə növbəti qələbə səhifəsi kimi yazılacaq



11 saylı Binəqədi-Qaradağ seçki dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Səbinə Xasayeva yap.org.az saytına müsahibə verib.

**- Səbinə xanım, sentyabrın 1-də Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər keçiriləcəkdir. Ölkəmizin siyasi sistemində aparıcı rola malik Yeni Azərbaycan Partiyası bu seçkilərə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə əldə etdiyimiz möhtəşəm ümumxalq Zəfərindən sonra yaranmış reallıqlardan irəli gələn hədəflərlə - Yeni dövrə Yeni Azərbaycanla qatılır. Bu barədə nə deyə bilərsiniz?**

- Müasir müstəqillik tariximizə nəzər saldıqda əminliklə söyləyə bilərik ki, hər bir uğurumuzun təməlində Ümummilli Lider Heydər Əliyevin bugünümüzə və gələcəyimizə hesablanmış, düşünülmüş və məqsədyönlü siyasəti dayanır.

Ulu Öndər Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdanda Azərbaycan olduqca mürəkkəb vəziyyətlə qarşı-qarşıya idi. Dövlət müstəqilliyinin itirilməsi təhlükəsi mövcud idi. Dahi şəxsiyyət Heydər Əliyev qayıdışı ilə Azərbaycanı yenidən qurdu, xalqın sabaha olan ümidlərini bərpa etdi. Bu, Azərbaycanın tənəzzüldən xilas olaraq tərəqqi yoluna çıxması, dünya miqyasında müstəqil siyasət həyata keçirən dövlət kimi tanınması və beynəlxalq aləmdə layiqli yerini tutması ilə əlamətdardır.

Dövlət başçısı İlham Əliyev İkinci Şuşa Qlobal Media Forumunda diqqəti həmin dövrün reallıqlarına yönəldərək bildirdi ki, Sovet İttifaqının süqutundan sonra Qərbdə və keçmiş sovet respublikalarının çoxunda belə bir fikir var idi ki, irəli getməyin və mövcudluğu təmin etməyin yeganə yolu böyük ölkələrin diktəsi altında yaşamaqdır. Azərbaycan fərqli yol seçdi. Ölkədə sabitliyi pozmaq səyləri, 2000-ci illərin əvvəllərində rəngli inqilablar cəhdləri olurdu. Azərbaycanın seçimi onun satellit ölkəyə çevrilməsinin qarşısını aldı. Yəni ölkəmiz de-fakto və de-yure müstəqilliyi seçdi. Müstəqil xarici siyasət, özünü təmin edən iqtisadiyyat, tərəfdaşlarla səmərəli əməkdaşlıq uğurlara yol açdı.

Azərbaycanın malik olduğu təbii resurslardan səmərəli istifadəsi üçün geniş imkanlar yarandı. Praqmatik enerji siyasəti ölkəmizin iqtisadi və siyasi mövqeyinin möhkəmlənməsində əhəmiyyətli rol oynadı. Azərbaycanın bugününə və sabahına inam artdı. Regional çərçivədə qurulan əməkdaşlıq miqyasını genişləndirərək beynəlxalq səviyyəyə yüksəldi.

Son 20 ildən artıq dövrdə Heydər Əliyev siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev iqtisadiyyatın şaxələndirilməsini təmin etməklə ölkəmizin dayanıqlı inkişafı üçün mövcud imkanları daha da artırdı. İqtisadi qüdrətimizin artması bütün sahələrdə, xüsusilə müstəqilliyimiz və suverenliyimizin qarantı olan ordu quruculuğu sahəsində mühüm addımların atılmasını təmin etdi.

Ümummilli Liderin yaratdığı möhkəm təməl üzərində Azərbaycanı daha güclü, qüdrətli ölkəyə çevirən Prezident İlham Əliyevin yürütdüyü xarici siyasət nəticəsində diplomatik uğurlarımızın miqyası daha da genişləndi, yeni dostlar və tərəfdaşlar qazandıq. Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın birliyi daha da möhkəmləndi.

Azərbaycanın bu uğurları Qarabağ münaqişəsinin həllini addım-addım yaxınlaşdırdı. Xalqımız tam əmin idi ki, Prezident İlham Əliyevin qətiyyətli, tarixi ədalətə və beynəlxalq hüquqa söykənən siyasəti nəticəsində torpaqlarımız işğaldan azad ediləcək, soydaşlarımız doğma yurd-yuvalarına qayıdacaqlar. Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə bu strateji hədəfə nail olduq. Bu gün qürur və iftixarla qeyd edirik ki, artıq dörd ildir tarixi Zəfərimizin reallıqlarını yaşayırıq.

Yeni Azərbaycan Partiyasının seçki platformasında ölkəmizin hər bir sahədə qazandığı uğurlar və qarşıda duran hədəflər öz əksini tapıb. Partiyanın seçki platformasında qeyd edildiyi kimi, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə 44 günlük Vətən müharibəsi və 2023-cü ildə bir günlük antiterror əməliyyatı nəticəsində qazandığımız möhtəşəm qələbələr Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin bərpasını və üçrəngli Bayrağımızın işğaldan azad edilmiş bütün ərazilərimizdə ucaldılmasını təmin etdi. Azərbaycan müasir dövlətçilik tarixinin mühüm nailiyyətlərlə zəngin olan şərəfli bir dönəminə uğurla yekun vuraraq yeni dövrə qədəm qoydu. Hazırda qarşıda dayanan başlıca məqsəd növbəti milli hədəflərin gerçəkləşdirilməsidir.

**- Yeni Azərbaycan Partiyası bu zamana qədər Azərbaycanın yüksəlişində və bir çox mühüm nailiyyətlərin əldə edilməsində müstəsna rol oynayıb. Qazanılan uğurların fonunda qarşıda duran hədəflərin reallaşdırılması ölkəmizə nə vəd edir?**

- Yeni Azərbaycan Partiyası ictimai-siyasi sabitliyin, iqtisadi inkişafın təmin olunması, dövlətçiliyin möhkəmləndirilməsi, milli maraqların qorunması, respublikanın beynəlxalq mövqeyinin gücləndirilməsi və digər istiqamətlərdə mühüm işlər görüb və tarixi nailiyyətlərə imza atıb. Eyni zamanda, ölkədə keçirilən seçki proseslərinə diqqət yetirsək, ümumxalq və qələbələr partiyası olan YAP-ın zəngin seçki təcrübəsinə malik olduğunu qeyd edə bilərik.

Partiyanın təqdim etdiyi seçki platformasında Azərbaycanın möhtəşəm uğurları və qarşıda duran hədəflər əks olunub. YAP-ın hədəflərində yeniləşmə daha aydın şəkildə büruzə verir. Bu da, qeyd etdiyimiz kimi, Azərbaycanın tarixi Zəfərə imza atması, ərazi bütövlüyü və suverenliyini tam bərpa etməsi, Böyük Qayıdış Proqramının uğurla icra edilməsi və yeni reallıqlardan irəli gələn digər mühüm amillərlə bağlıdır.

Təbii ki, hər bir uğurumuz Ulu Öndər Heydər Əliyevin siyasi mirası olan və Prezident İlham Əliyevin rəhbərliyi ilə məqsədyönlü fəaliyyətini uğurla davam etdirən Yeni Azərbaycan Partiyasının cəmiyyətdə nüfuzunu, xalqın ona etimadını daha da artırır. Bu isə öz növbəsində partiyanın hər seçki prosesinə qələbə əzmi ilə qatılmasını və uğurlu nəticələr qazanmasını şərtləndirir. Heç şübhəsiz ki, 1 sentyabr - növbədənkənar parlament seçkiləri də YAP-ın cəmiyyətdə möhkəmlənən mövqeyinin daha bir təqdimatı olacaq.

Hazırda sıralarında 700 mindən artıq vətəndaşımızı birləşdirən Yeni Azərbaycan Partiyasına inamın və etimadın göstəricilərindən biri gənclərin partiyaya üz tutmasıdır. YAP gənclərə diqqət və qayğını, onların potensial imkanlarından maksimum səmərəli istifadə etməyi xüsusi diqqətdə saxlayır. Partiyanın deputatlığa namizədləri sırasında gənclərin də sayı kifayət qədərdir.

Atılan hər bir addım Azərbaycanın müasir dövrün çağırışlarını adekvat cavablandırmasına, bunların fonunda daha da qüdrətlənməsinə, mövqeyini möhkəmləndirməsinə xidmət edir. Şübhə yoxdur ki, partiyamız bu seçkiləri də şərəfli tarixinə növbəti qələbə səhifəsi kimi yazacaq. Hədəflərimiz çoxşaxəlidir və hər biri reallığa çevriləcək.

**- Səbinə xanım, seçicilərə çağırışlarınız nədən ibarətdir?**

- Azərbaycan demokratik dəyərlərə böyük hörmətlə yanaşan və bunu atdığı addımları ilə təsdiqləyən ölkədir. Hər kəs öz fikrində, seçimində azad və sərbəstdir. Seçicilərimizi öz seçki hüquqlarından istifadə edərək layiqli namizədlərə səs verməyə çağırıram. Yeni dövrə yeni Azərbaycanla addımlamaq istəyiriksə, səsvermə prosesində fəal olmalı, dünənin, bu günün və gələcəyin partiyası olan Yeni Azərbaycan Partiyasının namizədlərinə dəstək verməliyik. İnanırıq ki, 1 sentyabr - növbədənkənar parlament seçkiləri Yeni Azərbaycan Partiyasına sonsuz inamın növbəti əyani ifadəsi olacaqdır.

# Daha güclü yeni Azərbaycan naminə...

2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 83 saylı Beyləqan seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Şahin İsmayılovun YAP Beyləqan rayon təşkilatının qərargahında seçicilərlə görüşü keçirilib.

YAP Beyləqan rayon təşkilatının sədri Müşfiq Səfərov tədbiri giriş sözü ilə açaraq Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli inkişaf yolundan bəhs edib. O bildirib ki, bu gün Ulu Öndərin layiqli davamçısı Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ən yüksək zirvələri fəth edir, xalqımız tarixi Zəfərlər qazanır.

Deputatlığa namizəd Şahin İsmayılov YAP-ın seçki platformasından bəhs edib, uğurlar və hədəfləri diqqətə çatdırıb. O, yeni reallıqlar fonunda qarşıda dayanan hədəflərə çatmaq üçün seçiciləri partiyanın namizədlərinə səs verməyə çağırıb.

Etibar İmanov, Ələmşah Məmmədquliyev, İfrat Məhərrəmov və Əjdər Məmmədov çıxış edərək uğurlarımızın davamı və daha güclü yeni Azərbaycan naminə seçiciləri parlament seçkilərində YAP-ın namizədini dəstəkləməyə çağırıblar.





# Xətai seçiciləri YAP-ın namizədinə səs verəcəklər

2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 35 saylı Xətai üçüncü seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Pərvanə Vəliyeva Xətai rayonu, Cavanşir küçəsində seçicilərlə görüş keçirib.

Deputatlığa namizəd Pərvanə Vəliyeva şəhid Xaliq Əzizzadənin abidəsini ziyarət edib, əziz xatirəsini ehtiramla yad edib.

Seçicilər qarşısında çıxış edən Pərvanə Vəliyeva bildirib ki, Azərbaycan hazırda müasir dövlətçilik tarixinin ən şərəfli və qüdrətli dövrünü yaşayır: "30 ildən çox işğal altında olan torpaqlarımız Prezident, Müzəffər Ali Baş Komandan, partiyamızın Sədri İlham Əliyevin rəhbərliyi ilə azad edilərək ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam təmin olunub, üçrəngli bayrağımız bütün ərazilərimizdə ucaldılıb. Yeni dövrün reallıqlarına uyğun hədəflər uğurla reallaşdırılır, ölkəmizdə sosial-iqtisadi inkişafın davam etdirilməsi, əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində ardıcıl addımlar atılır".

Daha sonra deputatlığa namizəd seçiciləri dinləyib, onların suallarını cavablandırıb. Şəhid Xaliq Əzizzadənin atası Vidadi Əzizzadə Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş Vətən oğullarının - Azərbaycan gəncliyinin məğrurluğu, rəşadətini, cəsurluğunu xüsusi qeyd edib. O, sakinləri YAP-ın namizədinə səs verməyə çağırıb.

Seçicilər də öz növbəsində seçimlərinin YAP-ın namizədi olacağını bildiriblər.





# Azərbaycan yeni dövrə qədəm qoyub

Sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 71 saylı Cəlilabad şəhər seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Malik Həsənovun seçicilərlə görüşü keçirilib.

Görüşdə YAP Cəlilabad rayon təşkilatının sədri Mirsüleyman Mirxaslı Yeni Azərbaycan Partiyasının "Yeni dövrə Yeni Azərbaycanla!" şüarı ilə parlament seçkilərinə qatıldığını vurğulayıb və partiyanın seçki platforması haqqında məlumat verib. O bildirib ki, hər bir seçici vətəndaşlıq mövqeyindən çıxış edərək seçkilərdə fəal iştirak etməli və layiqli namizədə səs verməlidir.

Çıxış edən deputatlığa namizəd Malik Həsənov qeyd edib ki, Azərbaycan müasir dövlətçilik tarixinin mühüm nailiyyətlərlə zəngin olan şərəfli bir dönəminə uğurla yekun vuraraq yeni dövrə qədəm qoyub. Budəfəki parlament seçkiləri ilk dəfə olaraq ölkəmizin bütün ərazilərində keçirilməsi ilə əlamətdardır: "Prezident İlham Əliyevin müstəqil və uzaqgörən siyasəti sayəsində istər ölkəmizdə, istərsə də bütövlükdə regionumuzda yeni reallıqlar yaranıb, qarşımızda yeni perspektivlər açılıb. Hazırda başlıca məqsəd növbəti milli hədəflərimizin gerçəkləşdirilməsidir".

Malik Həsənov seçiciləri parlament seçkilərində fəal iştirak etməyə və ən layiqli namizədə səs verməyə çağırıb.

Tədbirdə, həmçinin seçicilər Əlisafa Qafarov, Gülmalı Bəylər, Oruc Hüseynov, Fəxrəddin Əliyev, Maarif Ağayev, Arifə Ağayeva, Nəbi Rəhimov, Günəş Ağayeva və digərləri çıxış edərək YAP-ın namizədinə səs verəcəklərini bildiriblər.





# Mərkəzi Bank təmkinli investisiya siyasəti yürüdür

## Qiymətli kağızlara yatırılan sərmayələr özünü doğruldur

Mərkəzi Bank (MB) investisiya siyasətini açıqlayıb. MB-nın ortamüddətli dövr üzrə investisiya strategiyasının əsas hədəf prioritetləri konservativ investor kimi sabit gəlirli qiymətli kağızlar bazarında investisiya alətlərini möhkəmləndirməkdən ibarət olacaq. Bura investisiya reytinqli dövlət və kvazi (suveren) istiqrazlardan, habelə pul bazarı alətləri daxildir. Həmin qiymətli kağızlar üzrə investisiya siyasəti ötən illərdə səmərəli alətlər kimi özünü təsdiq etdiyindən daha da inkişaf etdirilməsi məqsədəuyğun hesab olunur.

### Mərkəzi Bank tələsmir...

Mərkəzi Bank səhm və əmlak bazarlarında investisiyaların axınında tədbirli və ehtiyatlı addım atmaq niyyətindədir. Digər inkişaf etmiş ölkələrin mərkəzi bank institutlarının qlobal maliyyə bazarlarında iddialı investor kimi çıxış etməsinə baxmayaraq, Azərbaycanın mərkəzi bank strukturu bu proseslərin iştirakçısı olmağa tələsmir. Bunun da başlıca səbəbi qlobal səhm, daşınmaz əmlak bazarlarına tez-tez baş verən təreddüdlər və gözlənilməz risklər fonunda ciddi itkilərdən qorunmaqdır. Təcrübə göstərir ki, səhm və daşınmaz əmlak bazarına investisiya edilmiş aktivlərin dəyəri beynəlxalq birja indekslərinin aşağı düşməsi nəticəsində itkiyə məruz qalır. Çünki qlobal səhm bazarı dayanıqlı deyil və bu cür simulyasiyalar nəticəsində ən çox itki ilə üzləşən maliyyə iştirakçılarından investorlarla bərabər, mərkəzi banklar da olur. Bu baxımdan MB mövcud ssenariyə əsaslanaraq adıçəkilən qiymətli kağızlara keçid strategiyasını qarşıdakı dövrün bazar nomenklaturasına uyğun müəyyənləşdirəcək.

Aktivlərinin həcmi hazırda 34 milyard manata bərabər olan MB qiymətli kağızlara təxminən 27 milyard manat investisiya yönəldib. Bankın qiymətli kağızlar portfelində ən böyük paya xarici dövlətlərin xəzinədarlıq notları sahibdir. 27 milyard manatlıq portfelin 12 milyard manatı - təxminən 42,5 faizi bu tip qiymətli kağızlardır. Son bir ildə notlara sərmayələr 6 milyard manata yaxın artıb.

MB-nın investisiyalarında qiymətli kağızların digər bir seqmenti olan qeyri-rezident yerli hakimiyyət orqanlarının və beynəlxalq təşkilatların istiqrazları da mühüm yer tutur. Borc qiymətli kağızlar həm birbaşa bankın, həm də kənar menecerlərin yönəltdiyi portfeldə saxlanılır. Bu qiymətli kağızlar üzrə orta illik faiz dərəcəsi 2.13 olmaqla, illik 0-5.13 faiz dərəcə ilə sabit faiz gətirir. Bundan başqa, Mərkəzi Bankın xarici dövlət istiqrazlarına investisiyalarının həcmi də az deyil. Bu istiqrazlar daha çox "Bank of England" və Çin hökuməti tərəfindən buraxılmış borc qiymətli kağızlarına investisiyaları özündə birləşdirir. Bu qiymətli kağızların orta illik faiz dərəcəsi isə 3,1-dir. İpoteka ilə təmin olunmuş ABŞ istiqrazları da MB-nın investisiya portfelində yer alır. Bu tip istiqrazların dəyəri təxminən 500 milyon manatdır.



Mərkəzi Bankın qiymətli kağızlar investisiya qoyuluşlarında İpoteka və Kredit Zəmanət Fondunun qiymətli kağızları da əhəmiyyətli paya malikdir. 600 milyon manata yaxın olan həmin sərmayə portfelinin illik orta faiz dərəcəsi isə 3.05-ə bərabərdir. MB-nın Maliyyə Nazirliyinin emissiya etdiyi istiqrazlara yönəltdiyi investisiyaların həcmi 150-200 milyon manatdır. MB-nın 2023-cü ilə dair dərc etdiyi maliyyə hesabatına əsasən, qiymətli kağızlardan əldə etdiyi gəlirlərin ümumi həcmi 500 milyon manatı ötüb.

Qeyd edək ki, Mərkəzi Bank kapital bazarının inkişafına dair strateji plana, həmçinin "Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiya"nın "Korporativ idarəetmə, investisiyalar, investorların maraqlarının qorunması, biznes etikası və korporativ sosial məsuliyyət" işçi qrupunun Fəaliyyət Planına əsaslanaraq, Qiymətli Kağızların Emissiyası Sistemi yaradıb. Sistem vasitəsilə investisiya qiymətli kağızlarının (səhm və istiqrazlar) dövlət qeydiyyatına alınması və yerləşdirilməsi ilə bağlı Mərkəzi Bank, Milli Depozit Mərkəzi və Bakı Fond Birjası tərəfindən emitentlərə göstərilən xidmətlərin elektron şəkildə həyata keçirilməsinə başlanılıb. Sistemin yaradılmasında əsas

Həmin ipoteka ilə təmin edilmiş istiqrazlar Federal Milli İpoteka Assosiasiyası (FNMA), Dövlət Milli İpoteka Assosiasiyası (GNMA) və Federal İpoteka Kredit Korporasiyası (FHLMC) tərəfindən buraxılmış borc qiymətli kağızlarına investisiyalardır. Həmin qiymətli kağızların orta illik faiz dərəcələri 3.88-dir. Mərkəzi Bank xarici dövlətlərlə yanaşı, xarici şirkətlərin də qiymətli kağızlarına sərmayə yönəldir. 2023-cü ildə bankın xarici korporativ istiqraz portfeli 370 milyon manatı ötüb ki, bu, qiymətli kağızlar üzrə orta illik faiz dərəcəsi 3.81 təşkil edib.

### Əsas məqsəd...

məqsəd kapital bazarı üzrə elektron xidmətlərin tətbiqini genişləndirməklə bazarda çevik maliyyələşmə imkanlarının yaradılması və bazara çıxış imkanlarının rəqəmsal kanallar vasitəsilə daha əlçatan edilməsidir. Sistem investisiya qiymətli kağızların buraxılışının dövlət qeydiyyatına alınması, emissiya prospektlərinin və informasiya memorandumlarının təsdiqi, səhmlərin birləşdirilməsi, xırdalanması və nominal dəyərinin artırılması və ya azaldılması investisiya qiymətli kağızlarının dövriyyədən çıxarılması, emissiyanın yekunları haqqında hesabatın təsdiqi, investisiya qiymətli kağızlarının Azərbaycan ərazisindən kənarda buraxılışı ilə bağlı dövlət qeydiyyatının aparılması və emissiya prospektində və buraxılışla bağlı qərara əlavə və dəyişikliklərin edilməsinin dövlət qeydiyyatına alınması ilə bağlı müvafiq əməliyyatları elektron formada aparmağa imkan verir. Prosesin vahid portal üzərindən icrası və əməliyyatların elektronlaşdırılması ölkəmizdə kapital bazarının inkişafına, bu sahədə xidmət keyfiyyətinin artırılmasına və emitentlərin rahatlığının təmin edilməsinə mühüm töhfə verməkdədir. Bütün bu tədbirlər qiymətli kağızlar bazarının inkişaf etdirilməsində maraqlı tərəf olan MB-nın investisiya siyasətinin genişlənməsinə xidmət edir.

**E.CƏFƏRLİ**

# Yaxın Şərq yeni müharibə astanasında...

## ABŞ hərbi gəmiləri hərəkətə keçib

HƏMAS hərəkatının Siyasi Bürosunun rəhbəri İsmayıl Haniyənin iyulun 31-də öldürülməsindən sonra Yaxın Şərqdə vəziyyət daha da gərginləşib. Hər ötən gün İsrail - HƏMAS qarşıdurmasının əhatə dairəsinin genişlənəcəyi və regionda genişmiqyaslı müharibəyə çevriləcəyi riski artır. Artıq Amerika Birləşmiş Ştatları (ABŞ) İranın İsrailə qarşı mümkün qisas hücumlarının qarşısını almaq üçün hazırlıqlara başlayıb. Mənbələrin məlumatına görə, ABŞ-ın Fars körfəzi, Şərqi Aralıq dənizi və Qırmızı dənizdə yerləşən hərbi birləşmələri, necə deyərlər, ayaq üstündədir, hərbi gəmilər hərəkətə keçərək yerdəyişmələr edir və yeni mövqelərdə möhkəmlənirlər.

### İrandan gələn sərt qisas çağırışları

Regionda ABŞ gəmilərinin və digər hərbi birləşmələrin yeni hərəkətliliyi İrandan gələn sərt qisas çağırışları fonunda müşahidə edilir. İran rəhbərliyi İsmayıl Haniyənin ölümündə İsraili günahlandırır və baş verən terror aktını milli təhlükəsizliyə təhdid kimi qəbul edir. İranın prezidenti və ali dini rəhbəri Haniyənin öldürülməsinə görə qisas alınacağına söz veriblər. Prezident Məsud Pezeşkian deyib ki, Tehran Fələstinin HƏMAS hərəkatının Siyasi Bürosunun rəhbəri İsmayıl Haniyənin ölümündə əli olanları "peşman edəcək". "Bu gün İran şəhid İsmayıl Haniyə üçün yas saxlayır. İran və Fələstin xalqları arasındakı bağ əvvəlkindən daha güclü olacaq, məzlumların müqaviməti və müdafiəsi hər zamankından daha şiddətli olacaq. İran İslam Respublikası öz ərazi bütövlüyünü müdafiə edəcək və terrorçu işğalçıları qorxaq əməllərinə görə peşman edəcək", - deyə Məsud Pezeşkian özünün X səhifəsində yazıb.

Hadisədə İsraili günahlandıran İranın ali dini lideri Ayətullah Əli Xamenei isə İsmayıl Haniyənin ölümünə görə "ağır cəza" vəd edib. O, İsmayıl Haniyəni "Fələstin mücahidlərinin cəsur lideri" adlandırıb. Onun yaydığı bəyanatda vurğulanır: "Biz İran İslam Respublikası ərazisində şəhid olanın qanının qisasını almağı özümüzə borc bilirik".

Məlum terror hadisəsi ilə bağlı İsrailə qarşı yönələn növbəti təhdid İranın Birləşmiş Millətlər Təşkilatındakı (BMT) daimi nümayəndəsi Əmir Səid İrəvanidən gəlib. BMT TŞ-də İranın tələbi, Rusiya, Çin və Əlcəzairin dəstəyi ilə keçirilən fövqəladə iclasda çıxış edən səfir də Haniyənin ölümündə İsraili nişan verərək vurğulayıb: "İran bu hücumu ən sərt şəkildə qınayır, eyni zamanda, bildiririk ki, beynəlxalq hüquqa uyğun olaraq özümüzü müdafiə haqqımızı saxlayırıq. Biz nə vaxt münasib bilsək, həmin anda lazım bildiyimiz şəkildə cavab verəcəyik".



İran təmsilçilərinin hələlik sözdə eşidilən, sahədə isə görünməyən qisas çağırışları İsraildə və okeanın o tayında sükutla qarşılanmayıb. Təl-Əvivə hərtərəfli dəstək verən rəsmi Vaşinqton vaxt itirmədən İranın ehtimal olunan hücumlarının qarşısını almaq üçün hazırlıqlara başlayıb.

Bu barədə Ağ Evin təmsilçisi Con Kirbi jurnalistlər üçün brifinqdə deyib. Onun sözlərinə görə, Tehranın hücumu bu həftə gözlənilir: "Biz bunu çox yaxından izləməyə davam edirik. İndiki məqamda hücumun İrandan, yoxsa onun proksilərindən gələcəyini, bunun necə görünə biləcəyini dəqiq söyləmək çətindir, lakin bunun əhəmiyyətli silsilə hücumlar ola biləcəyi ehtimalına hazır olmalıyıq. Buna görə də biz son bir neçə gündə bölgədəki gücümüzü və imkanlarımızı artırdıq", - deyə Con Kirbi vurğulayıb.

Qeyd edək ki, ABŞ-nin elan olunan ha-

### ABŞ vaxt itirmədən hazırlıqlara başlayıb

zırlıqlarına həm də İsrailin dəstəklənməsi daxildir. Bu günlərdə CNN telekanalı öz mənbələrinə istinadla ABŞ-nin silah və hərbi texnika alınması üçün İsrailə 3,5 milyard dollar ayırmaq niyyətində olduğu barədə məlumat yayıb. Bildirilir ki, Dövlət Departamenti amerikalı qanunvericiləri Ağ Ev administrasiyasının İsrailə milyardlarla dollarlıq xarici hərbi maliyyə vəsaiti ayırmaq niyyəti barədə xəbərdar edib. Bu vəsait aprel ayında İsrail üçün ABŞ Konqresi tərəfindən qəbul edilmiş 14,1 milyard dollarlıq əlavə maliyyə layihəsi çərçivəsində ayrılır. Mənbələr telekanala bildiriblər ki, Tehran və Beyrutda yüksək səviyyəli HƏMAS və Hizbullah liderlərinin öldürülməsindən sonra İsrail İran və Hizbullahın hücumuna hazırlaşır. Maliyyə yardımı da Təl-Əvivə məhz bu məqsədlə veriləcək.

Regionda ordu birləşmələrinin, o cümlədən hərbi gəmilərin səfərbər edilməsi də İranın mümkün qisas hücumlarının qarşısının alınmasına hesablanıb. "ABŞ idarəolunan raketlərin yerləşdiyi sualtı gəmisini Yaxın Şərqə göndərib. Bunu ABŞ-nin müdafiə naziri Lloyd Ostin deyib. Məlumata görə, İsrail müdafiə naziri Yoav Qallant ilə danışan Ostin "Avraam Linkoln" təyyarədaşıyan gəmi qrupunun Yaxın Şərqdə sürətlə yerləşdiriləcəyini bildirib. Ostin həmçinin Vaşinqtonun Təl-Əvivin müdafiəsi üçün bütün mümkün tədbirləri görəcəyini deyib. Lloyd Ostin "USS Georgia" nüvə sualtı qayığının da Yaxın Şərqə göndərilməsi barədə göstəriş verildiyini bildirib. Pentaqonun məlumatına əsasən, "Teodor Ruzvelt" aviadaşıyıcı gəmisi artıq regiondadır. Bundan əlavə, Pentaqon rəhbəri qanadlı raketlərlə təchiz edilmiş "Corciya" sualtı qayığını CENTCOM-un məsuliyyət zonasına yerləşdirməyi tapşırıb.

Pentaqon regionda hərbi hazırlıqlarını gücləndirməsini gərginliyin artması ilə izah edir. Ancaq verilən izahların məzmunundan asılı olmayaraq, görünən odur ki, Yaxın Şərq yeni müharibə alovuna sürüklənir.

**Mübariz FEYİZLİ**

# Ata qətlinin sirri

## Fyodor Dostoyevskinin "Karamazov qardaşları" romanı haqqında

*əvvəli ötən saylarımızda*

Bütün dəlil-sübutlar Mityanın əleyhinədir. İvan ata qətlində əli olduğunu hiss elədiyinə görə ağır sarsıntı keçirir, ağlını itirmək dərəcəsinə çatır, gözünə görünən şeytanla söhbətləşir. Ona yaxşı məlumdur ki, atasını Smerdyakov öldürüb, hələ faciə baş verməmişdən o bunun belə olacağını bilirdi. İvan ögey qardaşının daxmasına baş vurur, ondan məsələyə aydınlıq gətirməsini istəyir. Smerdyakov törəddüdə varmadan cinayətini boynuna alır, Fyodor Pavloviçin kabinetindən götürdüyü üç min rublu İvana verir. Ancaq bunu da deyir ki, qətli tək törətməyib, İvan da bu cinayətə ortaqdır. Onun "əgər Allah yoxsa, hər şey məqbuldur" tezisi lakeyi bu amansız qətli törətməyə təhrik eləyib. Üstəlik, onun İvana sətiraltı ifadələrlə qandırdığı mətləbi qulaqardına vuranda İvan artıq atasının qətlinə fərman vermişdi. Odur ki, ağıllı qardaş zalım qardaşın əməlinə birbaşa şərikdir.

Gecə Smerdyakov özünü asır. Bu, İvanın işini daha da çətinləşdirir. Dmitrini təmizə çıxarmaq, demək olar, artıq mümkün deyil. İvan məhkəmədə Smerdyakovun etirafını səsləndirib ondan aldığı pulu dəlil kimi təqdim eləsə də, onun xəstəhal olması, hallüsinasiyaya qapılması hakimləri inandırmağa əngəl törədir. Üstəlik, Katerina İvanovnanın məhkəməyə göstərdiyi bir məktub (həmin məktubda sərxoş Dmitri Karamazov atasını öldürmək istədiyini açıq mətnlə yazmışdı) məsələyə son nöqtəni qoyur. Katya bununla həm Mityadan, həm də Qruşenkadan qisasını alır. Fəqət Dmitri özü də özünü təmizə çıxarmağa bir o qədər can atmır, qəlbini didən günah duyğusu şiddətlə cəza tələb eləyir. Axı o, atasını öldürməyibsə də, bunu arzulayıb, özü də möhkəm, sidq-ürəkdən arzulayıb (İvan məhkəməyə verdiyi ifadəsində elə belə də deyir: kim atasının ölümünü istəməyib?.. Nəzərə alın ki, bu əsər yazılanda Freyd hələ öz nəzəriyyəsindən xəbərsiz gənc həkim idi, Kafka isə heç dünyaya gəlməmişdi). Yalnız bu cəza Mityanın ömrünü təzələyib onu dinc həyata qovuşdura bilər.

Artıq hər bir Karamazovun yeri aydın görünür: Fyodor Pavloviç qara torpağın altında, Dmitri soyuq zindanda, İvan işığı öləzimiş beyninin zülmət labirintində, Smerdyakov isə cəhənnəmdə, Alyoşa isə başına toplanmış on iki növcavanla (İsa Məsihin on iki həvarisinə işarədir), on iki saf, təmiz ruhla işıqlı yeni həyatın astanasında. Karamazovları ailəlikcə tora salmış şeytanın tələsindən yalnız Alyoşa salamat çıxır. Tanrıya söykənən kəsə İblisin dişi batmır.

Epiloqda İvanla Katerinanı bir yerdə görürük - su axıb çuxuruna tapıb. Onlar Dmitrini qaçırmaq üçün birlikdə plan qururlar, qaçış baş tutsa, Mitya ilə Qruşenka okeanın o tayına adlayıb Amerikada yeni həyata başlayacaqlar. Fəqət bu planın həyata keçib-keçmədiyini biz heç zaman bilməyəcəyik. Romanın nəzərdə tutulmuş davamını yazmağa Dostoyevskiyə əcəl möhlət vermədi. Aleksey Karamazovun əlil, həm də ərköyün qız Liza Xoxlakova ilə evlənib-evlənməədiyindən də heç vədə xəbər tutmayacağıq. Bir məsələ aydındır ki, Alyoşanın Lizaya sevgisi cismani, eqoistik bağlılıq deyil, şəfqət, mərhəmət üstündə köklənmiş altruistik xristian məhəbbətidir. Erkən (bunu deyəndə elli yaşına qədər yazdıqlarını nəzərdə tuturam) Tolstoydan fərqli olaraq Dostoyevskinin əsərlərində saf, işıqlı, duru sevgiyə, isterikadan, sadizmdən, mazoxizmdən, cürbəcür patoloji hallardan arınmış pak məhəbbətə rast gəlmək müşkül işdir. Zənnimcə, o pak dediyimiz sevgi hadrasa sadizmlə mazoxizmin arasından, insan instinktinin bu iki qütbünün kölgəsi, ləkəsi düşməyən neytral zonadan keçir. Dostoyevski (eləcə də əllidən sonrakı Tolstoy) üçün belə bir zonanın var olduğu mənə həmişə şübhəli görünüb...

***

Karamazovların hər biri rus xalqının bətnindən düşmüş tipaj olsa da, Karamazov ailəsinə külli bəşərin modeli kimi baxılmalıdır. Dostoyevski qardaşların timsalında başlıca insan tiplərini yaradıb.

Dmitri Karamazov irrasional, impulsiv tipdir, onun varlığı başdan-ayağa instinktlərdən hörülmüş ehtiras yumağıdır. Başqa sözlə, Mitya bədəni, cismin istəklərini təmsil eləyir. Smerdyakov da onunla bir cəbhədədir, sadəcə o, instinktlərin Dmitri kimi pozitiv yox, neqativ qütbündə qərar tutub. Smerdyakov Mityanın astar üzüdür. Əgər Dmitri Karamazovu müsbət emosiyalar, yaşamaq instinkti (Eros) hərəkətə gətirirsə, Pavel Smerdyakovu mənfi emosiyalar, ölüm instinkti (Tanatos) idarə eləyir. Təsadüfi deyil ki, Fyodor Pavloviç Karamazov o biri (qanuni) övladlarına yox, məhz ona atasının adını qoyub, yəni Smerdyakov bir növ ölülər səltənətinin dirilər aləmindəki nümayəndəsidir. Atanın ölümü məhz onun əlindən olur. Mityanın ehtiraslarını qaynama dərəcəsinə çatdıran da, ona ata qətlinin parolunu verən də odur. Bir sözlə, Mitya ilə Smerdyakov romanda cismani-bioloji varlığın bir-birini stimullaşdıran iki üzünü, iki qütbünü təmsil eləyirlər: həyat-ölüm, ehtiras-qorxu, güc-zəiflik, sağlamlıq-xəstəlik... Ona görə də Dmitri rəqabətdə olduğu atasının ölümünü arzulayır, ancaq atanı Smerdyakov öldürür.

İvan Karamazov rasional, düşünən tipdir, əsərdə o, ağılın timsalıdır. Skeptik İvanın ağlı tam da yalın ağıl deyil, haqqa, ədalətə dərin şübhə bəsləməsi ucbatından bu ağıl qaranlıq instinktlər səltənəti, yalan, riya fabriki üçün əlverişli, maraqlı tərəfdaşa çevrilir. Smerdyakov məhz onun təhrikiylə qətl törədir, Dmitri nişanlısını məhz ona peşkəş verir. Ancaq Alyoşa ilə o heç cür yollaşa bilmir. Alyoşanın əqidəsi, inamı, imanı ona tam yabançıdır. İvan imansız ağıldır, quru məntiq, inamsız bilikdir. İnamsız biliksə qəlbindən ayrı düşmüş kəsik başdır. İvana elə gəlir ağılla, məntiqlə hər şeyi izah eləmək olar, di gəl, onun güvəndiyi məntiq sonda özünü də, doğmalarını da faciəyə, fəlakətə sürükləyir.

Aleksey Karamazov da irrasional tipdir, ancaq sözün ruhani mənasında. Alyoşa təkcə Tanrıya, İsa Məsihə, mürşidi Zosimaya yox, bütün insanlara inanır. Onun varlığı başdan-başa inamdan, intuisiyadan, sevgidən yoğrulub. Hamını sevdiyinə, hamıya inandığına görə hamı da onu sevib ona inanır. O, xarakterindən asılı olmayaraq hər kəsin sahilinə asanlıqla yan alır, şəfqətinin, düzlüyünün hesabına hamıyla asan dil tapır. Hər kəs dərdini ona söyləyir, sirrini ona açır. Romanda bütün personajları bir-birinə bağlayan tək fiqur Alyoşadır, müəllif əsərin baş qəhrəmanı rolunu ona tapşırıb. Alyoşa yalan bilmir, o, doğrudan, həqiqətdən başqa nəsə danışa bilməz. Alyoşa bədənindən, ağlından cüda düşmüş saf ruhdur. Bədən ondan ötrü artıq yükdür, ağılsa ona gərək deyil, çünki ən körpə ruh da ən qocaman ağıldan çox bilir, ondan müdrikdir. Tanrının bir nüsxəsi kimi ruhun biliyə ehtiyacı yoxdur, çünki ruh özlüyündə mütləq biliyin özüdür. Bilmək ağılın ehtiyacıdır. Könül istəsə belə səhv eləyə, əyri yolla gedə bilməz. Ruhun səhvə yol vermək, yanlış yola düşmək imkanı, mexanizmi yoxdur.

Əgər İvan kiçik qardaşı Alyoşayla ittifaqa girsəydi, bu izdivacdan möcüzələr doğulardı. Qardaşlarından fərqli olaraq Alyoşanın bioloji atadan başqa mənəvi atası da var. Hər kimin timsalında zühura gəlir gəlsin, bu ata Göylər sahibi - Tanrı atadır (İsa Məsih deyirdi ki, ruh ruhdan, bədən bədəndən törəyir; yəni mənim bədənim dülgər Yusifin, ruhum Allahın oğludur). Alyoşanın bu dünyanın heç nəyində gözü yoxdur - nə pulunda, nə varında, nə mülkü, nə qadınında. Ona görə də bütün bunlar özü ona can atır. Qardaşların hərəsi bir səbəbdən sıradan çıxandan sonra ata mülkü, şübhəsiz, ona - atasının bir çöpündə belə gözü olmayan oğula qalmalıdır. Beləcə, heç nəyi olmayan xeyir sonda hər şeyə sahib çıxır, hər şeyi olan şər isə axırda lüt qalır. Xeyir şəri yenməyi diləməsə də, şər xeyirə yenilir, özü də demək olar ki, könüllü yenilir.

Heç nəyə tamahı keçməyən Alyoşa Karamazovun yalnız insanda gözü var. Alyoşa könül ovçusudur (İncildə İsa peyğəmbər həvarilərinə belə deyir: "Ardımca gəlin, mən sizi insan ovçularına çevirəcəyəm"). Bu ov sonunda onu ilahi həzzin zirvəsinə - peyğəmbərlik mərtəbəsinə qaldıracaq...

(Yeri gəlmişkən: Şah İsmayıl Xətayi də könül ovçusuydu. Onun məqsədi səltənətləri, dövlətləri almaq yox, insanları, ürəkləri, beyinləri fəth eləmək idi. Torpaq işğalı əsas niyyəti olsaydı, vassalı sayılan dövlətlərin ərazisini də öz səltənətinə qatardı. Ancaq bildiyimiz kimi, belə olmayıb, Şah İsmayıl yalnız ona meydan oxuyan, düşmən kəsilən hökmdarlarla savaşıb. Çətin gündə Səfəvilərin yardımına möhtac qalan, ona rəğbət bəsləyən Sultan Babur, Sultan Hüseyn Bayqara kimi irili-xırdalı neçə padşah öz səltənətini sərbəst idarə eləyib. Sufilər yoldaşı, dərvişlər dədəsi Xətayinin mahir könül ovçuluğunun nəticəsində, könül oxunun hədəfə dəyməsi sayəsində qonşu məmləkətlərdən qızılbaş dövləti ərazisinə insan axını vardı. Ənəlhəq hikmətinə, insanı ucaldan zehniyyətə qənim kəsilmiş xanədanlar, hökmdarlar məhz bu işğaldan qorxurdular, məhz bunun qarşısını almaq üçün ən imansız kafirlə də birləşməyə hazır idilər).

***

Bir az da dərinə getsək, Karamazov qardaşları elə bir bütöv adamdır. Hər qardaş ayrıca götürülmüş fərdin bir atributudur. Alyoşa bu fərdin könlü, İvan ağlı, Dmitri ilə Smerdyakov isə canıdır. Ruh beyində, bədəndə idarəçiliyi ələ ala bilməyəndə insan adlı kosmik gəmi fəzada fəlakətə uğrayır - Karamazov ailəsinin fəlakəti kimi. Ağıl da fanidir, can da fanidir. Sona yenə yalın könül, çılpaq ruh qalır.



**F.Uğurlu**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Türküstan Media Group" MMC – 050 241-48-23
"Region Press" MMC – 055 316-79-01
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






# Ölkəmizin qlobal inteqrasiyaya verdiyi töhfə

## Dünya birliyindəki rolumuz artır...

*Yeganə BAYRAMOVA*

Azərbaycanın daim dəyişən beynəlxalq və regional proseslərə uyğun olaraq yürütdüyü xarici siyasəti var. Ölkə başçısının da mütəmadi olaraq beynəlxalq təşkilatların rəhbərləri ilə keçirdiyi görüşlər, əldə etdiyi razılaşmalar, dünyanın güc mərkəzləri ilə apardığı müzakirələr sayəsində qlobal siyasi arenada etibarlı tərəfdaş kimi etimad qazanmışıq.

Prezidentin uğurlu siyasəti nəticəsində Azərbaycan dünyanın müxtəlif ölkələri və təşkilatları ilə həm sosial, həm hərbi, həm siyasi, həm də iqtisadi sahələrdə əməkdaşlıq qurub. Ölkəmiz beynəlxalq münasibətlər çərçivəsində həll olunan məsələlərdə fəal iştirak edir. Azərbaycan həmçinin qlobal və regional miqyasda xüsusi nüfuza sahib olan beynəlxalq təşkilatlarla əməkdaşlıqda maraqlıdır.

**Azərbaycan bütün dünyada etibarlı tərəfdaşdır**

Mövzu barədə fikirlərini "Yeni Azərbaycan"la bölüşən politoloq Turan Rzayev bildirib ki, Azərbaycan müasir geosiyası reallıqda Cənubi Qafqazda lider ölkədir. Onun sözlərinə görə, bunun da əsas meyarı uğurlu, xarici siyasət, iqtisadi inteqrasiya və siyasi sabitlikdir: "Xarici siyasətin düzgün müəyyənləşdirilməsi və icrası dünyanın mürəkkəb, həssas bölgəsində-coğrafi baxımdan Qərb və Şərqin kəsişməsində, sivilizasiyaların qovuşma məkanında, strateji yanaşmalarda isə geosiyasi və geoiqtisadi maraqların kəsişmə nöqtəsində yerləşən Azərbaycan üçün müstəsna əhəmiyyətə malikdir. Belə ki, ölkəmiz milli maraqlarını, regionda aparıcı dövlət statusunu qorumaqla yanaşı, Qərb, islam ölkələri, türk dünyası və Müstəqil Dövlətlər Birliyinin siyasi iqtisadi-mədəni məkanları ilə qarşılıqlı faydalı münasibətlər qurur, beynəlxalq əməkdaşlığı və bərabərhüquqlu tərəfdaşlıq əlaqələrini genişləndirir. Bu gün Azərbaycanın siyasi və iqtisadi potensialı artıb, regionda söz sahibi olan dövlətə çevrilmişik, ölkəmizin beynəlxalq "siyasət səhnəsi"ndə nüfuzu və mövqeyi daha da möhkəmlənib. Hazırda dövlətimiz dünyanın bir sıra mötəbər beynəlxalq təşkilatlarının tamhüquqlu üzvüdür. Azərbaycan dünyanın 177 dövləti ilə diplomatik əlaqələr qurub. Respublikamızda xarici dövlətlərin 80-dən çox səfirlik və konsulluğu fəaliyyət göstərir. Azərbaycanın uğurlu xarici siyasət kursu xarici ölkələrlə siyasi, iqtisadi və mədəni əməkdaşlıq sahəsində onu etibarlı tərəfdaş kimi tanıdıb".

**Beynəlxalq mövqelərimiz güclənib**

T.Rzayev qeyd edib ki, çoxtərəfli münasibətlər fonunda Azərbaycan dünyanın əksər beynəlxalq təşkilatları ilə sıx əməkdaşlıq kursu həyata keçirir: "Həmin əməkdaşlıq kursu qarşılıqlı, faydalı əməkdaşlığa söykənir. Dövlətimiz heç zaman başqalarının daxili işlərimizə qarışmasına imkan verməyib. Eyni münasibəti də qarşı tərəflərdən tələb edib. Ona görə də Azərbaycanın qeyd etdiyim istiqamətdə apardığı xarici siyasət kursu nəticəsində beynəlxalq mövqeləri də güclənir. Eyni zamanda həmin siyasət nəticəsində ölkəmizin hərbi gücü kifayət qədər artıb. Bunun nəticəsidir ki, 44 günlük Vətən müharibəsində Ali Baş Komandanımızın rəhbərliyi altında ordumuz tarixi qələbəyə imza atıb. Möhtəşəm zəfər Azərbaycan xalqının ləyaqətini, qürurunu özünə qaytarıb, xəcalət təri alnımızdan silinib. Hazırda həmin qələbənin təntənəsini yaşayırıq və yeni hədəflər müəyyən etmişik. İşğaldan azad olunan ərazilərimizin yenidən qurulması və bərpası ilə bağlı siyasət reallaşmaqdadır".

**Bərabərhüquqlu tərəfdaşlıq münasibətləri...**

Politoloqun sözlərinə görə, dövlətçiliyimizin möhkəmlənməsinə dəstək olan qurumlara mane olanları aydın şəkildə ayırmalıyıq: "Hazırda beynəlxalq münasibətlər sistemi elə bir vəziyyətə gəlib ki, dünya birliyi anlayışı öz formasını dəyişib. Demək olar ki, dünya birliyi mövcud deyil. Azərbaycanın dünya birliyinə inteqrasiyası mövzusuna gəlməmişdən öncə, beynəlxalq münasibətlər sisteminin hazırki vəziyyətinə nəzər salmağı önəmli hesab edirəm. Dünyada inamsızlıq və milli eqoizm hökm sürür. Beləliklə, beynəlxalq hüquq sisteminin və beynəlxalq təhlükəsizlik mexanizmlərinin deqradasiyası baş verdi, bu sahədə bir çox çağırışlar var. Lakin o demək deyil ki, Azərbaycan beynəlxalq təşkilatlarla, regional və qlobal birliklərlə əməkdaşlıq etməməlidir. Sadəcə olaraq dövlətçiliyimizin güclənməsinə dəstək olan qurumları, buna mane olmaq istəyən qurumlardan aydın şəkildə ayırmaq lazımdır.

Azərbaycanın yürütdüyü çoxvektorlu və balanslaşdırılmış xarici siyasət strategiyası ilk növbədə region və Qərb ölkələri ilə sağlam münasibətlərin inkişafını, bütün dövlətlər və koalisiyalarla qarşılıqlı faydalı əməkdaşlıq qurulmasını nəzərdə tutur. Çoxvektorlu xarici siyasət kursunu reallaşdıran Azərbaycan Respublikası bununla özünü çoxsaylı təhdidlərdən xeyli dərəcədə qorumağa, ölkədə sabitliyi saxlamağa və dünyanın bir sıra dövlətləri ilə bərabərhüquqlu tərəfdaşlıq münasibətləri qurmağa nail olub".


Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti üzrə hazırlanmışdır**


## Dünyanı qorxuya salan virus...

### Azərbaycanda meymunçiçəyi təhlükəsi var?

*Yeganə BAYRAMOVA*

Son günlər meymunçiçəyinə yoluxanların sayında artım müşahidə edilməkdədir. Xəstəlik koronavirusdan sonra bütün dünya ölkələrinin ikinci pandemiya qorxusuna səbəb oldu. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən virusla bağlı həyəcan təbili çalınıb. Belə ki, ÜST avqustun 14-də xəstəliyin yayılması ilə bağlı fövqəladə iclas keçirəcək.



ÜST rəhbəri Tedros Adhanom Qebreyesus "X" sosial şəbəkəsində bu barədə məlumat verib, SOS siqnalı yayıb. Qebreyesus Konqo Demokratik Respublikasında artıq epidemiya şəklini almış meymunçiçəyi xəstəliyi ilə bağlı vəziyyətin ciddi olduğunu bildirib. Xatırladaq ki, xəstəliyin heyvandan insana ilk ötürülməsi halı 1970-ci ildə Konqo Demokratik Respublikasında qeydə alınıb.

Qeyd edək ki, meymunçiçəyinə hətta Azərbaycana qonşu olan Gürcüstanda yoluxma faktı qeydə alınıb. Belə olan halda virusun ölkəmizdə aşkarlanma ehtimalları da müzakirə mövzusuna çevrilib.

**"Azərbaycanda ola bilməz deyə bilmərik"**

Mövzunu "Yeni Azərbaycan"a dəyərləndirən infeksionist Elşən Seyfullayev bildirib ki, meymunçiçəyi xəstəliyi meymunçiçəyi virusunun törətdiyi və əsasən Qərbi və Mərkəzi Afrikada yayılmış xəstəlikdir: "Hazırda Avropanın bir neçə ölkəsində aşkarlansa da, yoluxuculuq riski aşağı olan viruslardandır. Meymunçiçəyi virusu yeni növ virus deyil. Amma yeni mutasiya olunmuş növü də ola bilər. Son illər bütün viruslar mutasiyaya uğrayıblar. Ona görə də xəstəlik Azərbaycanda ola bilməz deyə bilmərik".

**Həmin şəxslərə xüsusi nəzarət edilməlidir**

E.Seyfullayev qeyd edib ki, ölkəmizdə xəstəliyin yayılmasının qarşısını almaq üçün ilk öncə xaricdən gələn şəxslərə xüsusi nəzarət edilməlidir: "Azərbaycandan Afrika ölkələrinə gediş-gəliş çox olmadığı üçün yayılma ehtimalı azdır. Ancaq qonşu ölkələrdə meymunçiçəyi virusu aşkar edilərsə, o zaman Azərbaycanda da yoluxmalar ola bilər".

**ÜST həyəcan təbili çalmaqda haqlıdır...**

İnfeksionistin sözlərinə görə, xəstəlik nəticəsində dəridə qabarcıqlar və qabıqlar əmələ gətirən sulu səpkilər yaranır: "Virus ilkin olaraq Afrika meşələrində olan meymunlarda yaranıb. Daha sonra isə insanlarla təmasa keçdiyi üçün onlarda da virus yayılmağa başlayıb. Simptomlar xəstəlik başlayandan 10 gün sonra özünü göstərir. Yoluxan insanlarda 35-40 dərəcə temperatur qeydə alına bilər. Dəri səpkiləri isə hətta sağaldıqdan sonra belə bədəndə müəyyən çapıqlarla qala bilər.

Meymunçiçəyi heyvan dişləməsi və ya cızıqdan, bədən mayelərindən, çirklənmiş əşyalardan və ya yoluxmuş şəxslə yaxın təmasdan da keçə bilər. Ölümlə nəticələnməsi faktları var. ÜST həyəcan təbili çalmaqda haqlıdır. Artıq bir Afrika ölkəsində epidemiya başlayıbsa, bu, təhlükəli xəbərdarlıqdır".



## Bir qayanın sirri

### Niobenin faciəsi - lovğalıq...

*Şahanə MÜŞFİQ*

"Ağac bar verəndə başını aşağı dikər",- deyib atalarımız. Lazımsız lovğalıq, özünü hər kəsdən üstün görmək, öz məziyyətlərini şişirdərək, sanki təkcə səndə imiş kimi onunla fəxr edib, insanları özündən aşağı görmək kimə uğur, başucalığı gətirib ki?! Hərdən hansısa xüsusiyyətinlə, var-dövlətinlə, sahib olduqlarınla öyünərkən onun bir gün olmaya biləcəyini də düşünmək lazımdır, şübhəsiz. Məsələn, Niobenin faciəsi kimi...

Mifologiyaya görə, Niobe Spil dağının ətrafında hökm sürən Lidiya kralı Tantalus və Dionenin qızıdır. Uşaqlığı bu bölgədə keçən Niobe Leto ilə dost olur, birgə oynayır. Böyüyüb gözəl gənc qız olanda isə Zebai kralı Amfion ilə evlənir və bu evlilikdən 12 uşağı olur: 6-sı qız, 6-sı oğlan (Bəzi qaynaqlarda isə 14 uşaq qeyd edilir, 7 qız, 7 oğlan).

Övladları ilə çox xoşbəxt yaşayan Niobe bir müddət sonra analığı ilə öyünməyə başlayır və 12 övladının olması ilə lovğalanır, ətrafında onun qədər bərəkətli ananın olmadığını deyir. Hətta uşaqlıq dostu ilahə Letoya da meydan oxuyur. Çünki Tanrı Zevslə evlənən Letonun Apollon və Artemida adlı iki övladı var. Niobe özünü Letodan da üstün görməyə başlayır. "Mən xoşbəxtəm. Nə olursa olsun, həmişə xoşbəxt yaşayacağam. Çoxlu övladım var. Əcəl hamısını əlimdən alıb məni uşaqsız qoya bilməz. Mənim nəslimi heç kim quruda bilməz. Leto yalnız 2 uşaq anası olduğu halda, özünü bir şey hesab edir. İki uşaq nədir!"

Bu təkəbbürlü sözləri eşidən digər qadınlar Niobeyə xəbərdarlıq edirlər: "Ah, sus, Leto eşitməsin... Leto bu dediklərini eşitsə..."

Leto güclü ilahədir və hamı ona hörmət edir. Lakin Niobe ağıllanmır və qürurlanmağa davam edir, "Leto analıq mövzusunda mənlə yarışa bilməz. Eşidirsə, eşitsin, bilirsə, bilsin..." deyə qışqırmağa davam edir.

İlahə Leto həmin vaxt çayın kənarında dincəlir. Və külək bu sözləri yavaşca Letonun qulağına pıçıldayır, Niobenin dediyi hər şeyi Letoya çatdırır. İlahə Leto bütün bu sözləri eşidəndə dəli olur. Qəzəblənən Leto uşaqları Apollon və Artemidanı yanına çağırır və onlardan Niobedən qisas almalarını xahiş edir.

Bundan sonra Apollon və Artemida analarının sözünə qulaq asaraq, yaylarını və oxlarını götürüb Niobenin uşaqlarını öldürməyə gedirlər. Günorta Niobenin 6 oğlu qayalı və sıldırımlı yamaclarda ov edərkən Apollon oxları vuraraq onları yerə sərir. Bu pis xəbəri eşidəndə altı qardaşın altı gözəl bacısı qardaşlarının öldürüldüyü dağa tərəf qaçırlar. Ancaq ora çatacaqları vaxt Günəş batmışdı və gecə idi. Ay və ov ilahəsi Artemida qaranlıqda parlayır və görünməz oxları ilə 6 bacını yerindəcə öldürür. Beləliklə, Niobenin 12 uşağının hamısı ölür.

Niobe günlərlə uşaqlarının meyitləri üzərində paltarları parçalanana qədər özünü döyüb ağlayır, saçlarının hamısını yolur. O, göz yaşı tökür, çırpınır və lazımsız öyünməsinin əvəzini çox pis ödəyir. 9 gün ərzində heç kim uşaqların cəsədlərinə toxunmur. Onların cəsədləri 10-cu gün tanrılar tərəfindən dəfn edilir.

Niobe övladlarını itirəndə dayanmadan ağlayır, fəryad edir. Böyük iztirab içində olan Niobenin nəhayət səsi kəsilir və lal məxluqa çevrilir. Tanrılar onun keçirdiyi dərin ağrıları görürlər. Tanrı Zevs Niobenin daha çox əzab çəkməsini istəmir və onu qayaya çevirir.

Həmin qaya bu gün Türkiyənin Manisa şəhərində, Spil dağında yerləşir. Çaybaşı məhəlləsindəki "Ağlayan qaya"nın yaranması Niobenin faciəsi ilə əlaqələndirilir.

Başqa adla Niobe qayası kimi də tanınan "Ağlayan qaya" görən hər kəsin təəccübünə səbəb olur. Çünki qayanın şəkli başını önə əyib ağlayan bir qadını xatırladır.

Hətta yaxın vaxtlara qədər bu qayanın göz çuxularından sızan suyun Niobenin göz yaşları olduğuna inanılırdı.

Niobenin bir ana kimi faciəsinə dünya ədəbiyyatı, incəsənəti də laqeyd qalmayıb. Əsrlər boyunca bir çox tanınmış ədəbiyyatçı bu faciəyə şeirlər qoşub, rəssamlar onu ağ kətan üzərində canlandırıb. Onun ən böyük rəsmi isə təbiətin özü tərəfindən yaradılan "Ağlayan qaya"dır, məncə. Bu, həm də lovğalığın səbəb ola biləcəyi faciənin insanlara hər zaman örnək olacaq daş heykəlidir.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4794**
**Sifariş: 1838**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova